HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Vergilər

№ 23 (713) ▪ 18 iyun 2014

www.vergiler.az

Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyevin Yunanıstan Respublikasına dövlət səfəri

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Yunanıstana səfər etmişdir. Azərbaycanın və Yunanıstanın dövlət bayraqlarının dalğalandığı Afina Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüş, Prezident İlham Əliyevi yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşılamışlar.*



Həmin gün dövlətimizin başçısı İlham Əliyevin Afinada rəsmi qarşılanma mərasimi olmuşdur. Sonra Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın təkbətək görüşü olmuşdur. Görüşdə Azərbaycan ilə Yunanıstan arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirilmiş, əlaqələrimizin bundan sonra daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu qeyd edilmişdir. Azərbaycan-Yunanıstan əməkdaşlığının Avropa İttifaqı çərçivəsində də önəmi vurğulanmışdır. Prezident İlham Əliyevin Yunanıstana dövlət səfərinin ikitərəfli münasibətlərin daha da inkişafı baxımından əhəmiyyəti bildirilmişdir. Söhbət zamanı ikitərəfli əlaqələr, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyasın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur. Yunanıstan Prezidenti Karolos Papulyas Azərbaycan Prezidenti İlham Əliyevi bir daha ölkəsində salamlamış və bu səfərin ikitərəfli əməkdaşlığın inkişafında xüsusi əhəmiyyət daşıdığını bildirmişdir: «Aramızda mövcud olan siyasi münasibətlərin səviyyəsi çox yüksəkdir. Hesab edirəm ki, gələcək üçün hər bir sahədə çox yaxşı perspektivlər vardır. Mən bu sahələr arasında enerji sahəsini xüsusi qeyd etmək istəyirəm».

Prezident İlham Əliyev, öz növbəsində, iki ölkə arasında münasibətlərin bütün sahələrdə dinamik inkişaf etdiyini diqqətə çatdırmışdır: «Çox sağ olun, cənab Prezident. Dəvətə və bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə minnətdaram. Yenidən Sizin ölkənizdə olmağımdan çox məmnunam. Biz Sizinlə indi təkbətək görüşdə ikitərəfli əlaqələrimizin müxtəlif aspektlərini geniş müzakirə etdik. Bir daha əmin olduq ki, Yunanıstan-Azərbaycan əlaqələri müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edir. Siyasi, iqtisadi, mədəniyyət, enerji sahələrində çox gözəl nəticələr və uğurlar vardır. Əminəm ki, mənim səfərim bu əlaqələrin inkişafına yeni təkan verəcəkdir. Qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram».

Sonra Azərbaycan-Yunanıstan sənədlərinin imzalanması mərasimi olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yunanıstan Respublikasının Prezidenti Karolos Papulyas mərasimdə iştirak etmişlər. İki ölkə arasında «Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yunanıstan Respublikası Xarici İşlər Nazirliyi arasında Avropa İttifaqı məsələləri üzrə əməkdaşlıq haqqında Memorandum», «Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Yunanıstan Respublikası Təhsil və Dini İşlər Nazirliyi arasında gənclər sahəsində əməkdaşlıq haqqında Memorandum» imzalanmışdır.

İyunun 16-da Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yunanıstan Respublikasının Baş naziri Antonis Samaras ilə görüşü olmuşdur. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olunmuşdur. İqtisadi sahədə, o cümlədən energetika, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu vurğulanmışdır. İqtisadi əlaqələrin Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində önəmi qeyd edilmişdir.

Görüşdən sonra Yunanıstanın Baş naziri Antonis Samaras tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.

Həmin gün Afinada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yunanıstan Respublikasının Baş naziri Antonis Samarasın yüksək səviyyəli iş adamları ilə görüşü olmuşdur. Görüşdə çıxış edən Yunanıstanın Baş naziri Antonis Samaras ölkələrimiz arasında əlaqələrin getdikcə daha da inkişaf etdiyini bildirmişdir. Qeyd edilmişdir ki, Azərbaycan ilə Yunanıstanın siyasi sahədə yüksək əməkdaşlığı iqtisadi sahəyə də öz təsirini göstərir. Bu da biznes qurumları arasında əlaqələrin daha da intensivləşməsinə geniş imkanlar açır.

Antonis Samaras Yunanıstan ilə Azərbaycan arasında enerji sahəsində də əməkdaşlığın uğurlu olduğunu söyləmişdir. O, TAP kəməri layihəsinin Yunanıstan ilə yanaşı, region ölkələrinin inkişafına da güclü təsir edəcəyini vurğulamışdır.

Prezident İlham Əliyev ölkələrimiz arasında yüksək səviyyəli əlaqələrin olduğunu deyərək Azərbaycanda gedən inkişaf prosesləri barədə görüş iştirakçılarına məlumat vermişdir. Dövlətimizin başçısı bildirmişdir ki, son 10 ildə Azərbaycan iqtisadiyyatı üç dəfə artmışdır. İqtisadiyyatın qeyri-neft sektorunun çəkisi yüksəlmişdir. Neft-qaz sektorunun iqtisadiyyatımızın aparıcı istiqaməti olduğunu deyən Azərbaycan Prezidenti bildirmişdir ki, böyük enerji resursları olan ölkəmiz tərəfindən «Şahdəniz», Trans-Anadolu və Trans-Adriatik layihələri icra edilir. Bu layihələrdə Yunanıstan da yaxından iştirak edir.

Azərbaycanın xaricə investisiya yatırmağa başladığını deyən Prezident İlham Əliyev hazırda ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları, turizm və digər qeyri-neft sahələrinin inkişafına böyük diqqət göstərildiyini və bu məsələlərə «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında geniş yer verildiyini demişdir.

Daha sonra Yunanıstanın tanınmış şirkətlərinin rəhbərləri və nümayəndələri təmsil etdikləri müəssisələr haqqında məlumat vermişlər. Bildirilmişdir ki, bu şirkətlər əsasən energetika, nəqliyyat, turizm, alternativ enerji mənbələri, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə ixtisaslaşmışdır.

İş adamları Azərbaycan ilə yeni əməkdaşlıq münasibətləri qurmaqda və mövcud qarşılıqlı fəaliyyətin genişlənməsində maraqlı olduqlarını qeyd etmişlər.

Görüş iştirakçıları Prezident İlham Əliyevə Azərbaycanın sürətli inkişafı ilə bağlı təbriklərini çatdırmış və respublikamızın biznes nöqteyi-nəzərindən də çox maraqlı ölkə olduğunu vurğulamışlar.

# Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycanda olmuşdur

*İyunun 14-də Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Azərbaycana səfər etmişdir. Prezident İlham Əliyevlə görüşən Avropa Komissiyasının sədri Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi, iqtisadi sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğulamış, energetika sahəsində əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğunu və bu səfərin Azərbaycan-Avropa İttifaqı münasibətləri baxımından önəmini bildirmişdir. Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*



Görüş başa çatdıqdan sonra Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında Azərbaycan Respublikasının İttifaqın proqramlarında iştirakının ümumi prinsipləri haqqında çərçivə sazişi üzrə bir tərəfdən Azərbaycan, digər tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq Sazişinin Protokolu imzalanmışdır.

Sonra Prezident İlham Əliyev və Joze Manuel Barrozu mətbuata bəyanatlarla çıxış etmişlər. Azərbaycan Prezidenti respublikamızla Avropa İttifaqı arasında əməkdaşlığın geniş olduğunu, üç il əvvəl Barrozunun səfəri zamanı enerji əməkdaşlığına Bəyannamənin imzalandığını və həmin sənədin uğurlu icrasına başlandığını qeyd etmişdir. Həmin sənədin davamı kimi mühüm enerji sazişlərinin imzalandığını vurğulamışdır: «2012-ci ildə biz Türkiyə ilə Trans-Anadolu kəməri üzrə Saziş imzaladıq. 2013-cü ildə Trans-Adriatik kəməri ilə bağlı Saziş imzalandı və nəhayət, həmin ilin sonunda «Sahdəniz-2» ilə bağlı Yekun İnvestisiya Qərarı imzalandı. Bunlar Azərbaycan qazının Avropa bazarlarına çıxışını təmin edəcəkdir. Proses artıq başlanmışdır və biz bu nəhəng layihələri vaxtında icra etmək əzmindəyik. «Şahdəniz-2», TANAP və TAP bu gün Avropanın ən iri infrastruktur layihələridir və dəyəri ən azı 45 milyard dollardır. Onların həyata keçirilməsi üçün bütün maliyyə və texniki imkanlarımız vardır. Biz bütün tərəfdaşlarımızla əməkdaşlıq edirik, eyni zamanda, tranzit və istehlakçı ölkələrlə çalışırıq. Əlbəttə ki, gələcəkdə bütün tərəflər və iştirakçılar arasında fəaliyyətin əlaqələndirilməsi istiqamətində Avropa Komissiyasının iştirakı bizim üçün çox vacib məsələdir və biz bunu yüksək qiymətləndiririk».

Avropa Komissiyasının sədri Joze Manuel Barrozu bəyanatla çıxış edərək Avropa İttifaqının Azərbaycanla ikitərəfli əlaqələrə verdiyi əhəmiyyəti vurğulamış, hazırkı münasibətlərin həm Azərbaycan xalqı, həm də Avropa İttifaqı vətəndaşlarının firavanlığı naminə inkişaf edəcəyini bildirmişdir. «Biz əlaqələrimizin gələcək inkişaf istiqamətlərinə toxunduq və qeyd etmək istərdim ki, Azərbaycan bizim üçün çox mühüm tərəfdaşdır. Məsələn, biz enerji sahəsində strateji etibarlı tərəfdaş əldə etmişik. Biz bundan sonra da bu istiqamətdə demokratiya və birgə dəyərlər, xüsusilə də fundamental azadlıqlar üzərində qurulmuş uzunmüddətli əməkdaşlığı davam etdirmək niyyətindəyik».

Enerji sahəsində əməkdaşlığa çox mühüm önəm verdiklərini bildirən Joze Manuel Barrozu Avropa İttifaqının «Cənub» qaz dəhlizinin uğurlu inkişafı ilə bağlı üzərinə düşənləri yerinə yetirəcəyini, bu layihənin Avropa İttifaqının enerji təhlükəsizliyi strategiyasının tərkib hissəsi olduğuni qeyd etmişdir. Həmin strategiya bu ayın 27-də Avropa İttifaqı Şurasında müzakirəyə çıxarılacaqdır. Aİ ilə Azərbaycan arasında uğurlu ticarət əlaqələrinin olduğuna diqqət çəkən Avropa Komissiyasının sədri 2013-cü ildə ticarət dövriyyəsinin həcminin 17,9 milyard avroya çatdığını xatırlatmışdır. Bu, Azərbaycanın xarici ticarətinin 42 faizi deməkdir. Qeyd olunmuşdur ki, bir müddət əvvəl tərəflər arasında viza sadələşdirilməsi və readmissiya sazişi Azərbaycan və Avropa İttifaqı arasında gediş-gəlişi sadələşdirəcəkdir. Yaxın zamanlarda Strateji Modernləşmə Tərəfdaşlığı Sazişinin imzalanmasının nəzərdə tutulduğunu da bildirən X.M.Barrozu bu sənədin Azərbaycanı Avropa İttifaqına mümkün qədər yaxınlaşdıracağını vurğulamışdır.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələyə toxunan cənab Barrozu qeyd etmişdir ki, Avropa İttifaqının qənaətinə görə, bu münaqişənin ədalətli həlli olmadan Cənubi Qafqazda sülh və sabitlik bərqərar olmayacaqdır.

İyunun 14-də Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Səngəçal terminalında olmuşlar. J. M. Barrozunun rəhbərlik etdiyi nümayəndə heyəti Xəzər regionunda bənzərsizliyi ilə seçilən Xəzər Enerji Mərkəzi ilə tanış olmuşdur.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Joze Manuel Barrozu Dağüstü Parkda, həmçinin Heydər Əliyev Mərkəzində də olmuşlar.

2 | Qanunu pozanlara qarşı ciddi tədbirlər görülür

3 | Nağdsız ödənişlər şəffaflığa xidmət edir

4 | Azərbaycanda makroiqtisadi sabitlik möhkəmlənir

5 | Müsabiqənin nəticələri açıqlanmışdır

# Yanvar-may aylarında Vergilər Nazirliyinin xətti ilə büdcəyə 3 milyard 121 milyon 703,4 min manat vəsait daxil olmuşdur

*Bu məbləğin 35,6%-i mənfəət vergisinin, 26,9%-i əlavə dəyər vergisinin, 12,2%-i fiziki şəxslərin gəlir vergisinin, 10,1%-i aksizlərin, 15,2%-i isə digər vergilərin payına düşür.*

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 1 milyard 717 milyon 678,7 min manat vəsait daxil olmuşdur.

Yanvar-may aylarında respublika üzrə 37 min 191 vergi ödəyicisi qeydiyyata alınmış, 1 iyun 2014-cü il tarixə qeydiyyatda olan vergi ödəyicilərinin ümumi sayı 570141-ə çatmışdır.

2014-cü ilin yanvar-may ayları ərzində respublika üzrə elektron formada göndərilmiş bəyannamələrin xüsusi çəkisi 91,1% təşkil etmişdir.

# Qanunu pozanlara qarşı ciddi tədbirlər görülür

İyun ayının 9-da və 10-da vergi qanununu pozan şəxslərin əmlakı siyahıya alınmışdır. Xəzər rayonu Qala qəsəbəsində yerləşən «Bakıelektromaşın» ASC-nin fəaliyyəti vergi orqanları tərəfindən araşdırılarkən 98 min 786 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmişdir.

Bu barədə vergi ödəyicisinə bildiriş göndərilsə də, borc qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilmədiyinə görə, Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən, yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi, əmlakın siyahıya alınması haqqında qərar çıxarılmışdır. Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən iyunun 9-da vergi ödəyicisinə məxsus 120 min manat dəyərində torpaq sahəsi müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Yasamal rayonu, Salatın Əsgərova küçəsində yerləşən AZACO şirkətində də əmlak siyahıya alınmışdır. 45 min 683 manat vergi borcu müqabilində daşınmaz əmlakın istismarı və kirayəyə verilməsi ilə məşğul olan müəssisənin siyahıya alınmış torpaq sahəsinin dəyəri 50 min manat dəyərində qiymətləndirilmişdir.

Vergi əməkdaşları tərəfindən Bakı-Quba yolunun üstündə yerləşən «Azərkarton» MMC-nin fəaliyyəti araşdırılarkən, 13 min 913 manat məbləğində borcunun yarandığı müəyyən edilmiş, borcun ödənilməsini təmin etmək üsulu kimi müəssisədəki 3 min manat dəyərində dəzgah və avadanlıq müvafiq qaydada siyahıya alınmışdır.

# Vergidən yayınan sahibkar həbs edilmişdir

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən araşdırılan cinayət işi zamanı müəyyən edilmişdir ki, Bakı şəhər sakini Murad Firad oğlu Rəhimov «Şahin Mobile» Məhdud Məsuliyyətli Cəmiyyətinə rəhbərlik etsə də, müəssisənin maliyyə və təsərrüfat fəaliyyətinin uçotunun aparılması vəzifəsini də öz üzərinə götürmüş, vergi orqanlarına təqdim etdiyi bəyannamələrə gəlirlər və xərclər barədə bilərəkdən təhrif olunmuş məlumatları daxil etmiş, qanunun tələblərini pozaraq ümumilikdə 181 min 419 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayınmışdır.

Bundan başqa, M.Rəhimov xüsusi razılıq (lisenziya) almadan birinci və ikinci məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işləri ilə məşğul olmuşdur. Direktor olduğu dövrdə Bakı şəhərinin Qaradağ və Xəzər rayonlarında qanunsuz olaraq müxtəlif tikinti-quraşdırma işlərini yerinə yetirmiş və 67 min 43 manat məbləğində gəlir əldə etmişdir.

İbtidai araşdırma zamanı M.Rəhimovun əməllərində cinayət olması sübutlarla təsdiq olunmuşdur. 6 iyun 2014-cü ildə M.Rəhimovun təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsi barədə qərar qəbul olunmuş, lakin o, istintaqdan gizləndiyi üçün qərarı ona elan etmək mümkün olmamış və barəsində axtarış elan edilmişdir.

Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin əməkdaşları tərəfindən keçirilən axtarış tədbirləri nəticəsində M.Rəhimov iyunun 9-da tutularaq istintaqa təhvil verilmiş və Cinayət Məcəlləsinin 192.2.2 və 213.2.2-ci maddələri ilə təqsirli bilinərək, barəsində Yasamal Rayon Məhkəməsinin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə araşdırma davam etdirilir.

# «Vergi dostları» bir araya gəlirlər



***İyunun 10-da Şəki rayonunda fəaliyyət göstərən «vergi dostları» ilə vergi əməkdaşlarının görüşü olmuşdur.***

Şəki Olimpiya Kompleksində keçirilmiş tədbirdə layihə iştirakçılarının gördüyü işlər nəzərdən keçirilmişdir. Görüş zamanı gənc nəslin vergilər haqqında biliklərinin artırılmasında, şagird və tələbələr arasında vergi mədəniyyətinin formalaşdırılması istiqamətində görüləcək işlər, «vergi dostları»nın fəaliyyət göstərdikləri kəndlər üzrə bəyannamələrin təqdimedilmə vəziyyəti müzakirə edilmişdir. Vergi ödəyicilərinin maarifləndirilməsi, əhali arasında vergi mədəniyyətinin artırılmasının əhəmiyyəti vurğulanmış, belə görüşlərin mütəmadi keçirilməsinin vacibliyi qeyd edilmişdir. Tədbir iştirakçılarına sadələşdirilmiş vergi bəyannamələrinin onlayn təqdim olunması, onlayn kargüzarlığa daxil olan məktubların oxunması əyani şəkildə nümayiş etdirilmiş, bu sahədə qazanılan təcrübənin əhəmiyyətinə diqqət yönəldilmişdir.

# Beynəlxalq əməkdaşlıq müzakirə olunmuşdur

*İyunun 5-də Nyu-Yorkda, BMT-nin Baş Qərargahında təşkilatın İqtisadi və Sosial Şurasının (ECOSOC) vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə xüsusi iclası keçirilmişdir.*

ECOSOC-un illik iclası zamanı cari beynəlxalq vergitutma məsələlərinə dair təqdimatlar və ayrı-ayrı qurumların işlərinin BMT Ekspertlər Komitəsinin həyata keçirdiyi fəaliyyətlərlə əlaqələndirilməsi imkanları müzakirə edilmişdir. Tədbirdə Ekspertlər Komitəsinin vergitutma bazasının eroziyası və mənfəətin köçürülməsi (BEPS) məsələləri üzrə altkomitəsi və hasilat sənayesinin vergiyə cəlb edilməsi məsələləri üzrə altkomitəsinin cari işlərinin geniş müzakirəsi aparılmışdır.

İclasda Azərbaycanı Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin rəisi Ülvi Yusifov təmsil etmişdir. İclas çərçivəsində vergi sazişlərindən sui-istifadənin qarşısının alınması, xidmətlərin vergiyə cəlb edilməsi və elektron ticarət mühitində dövlətlərin vergitutma bazalarının mühafizəsinə həsr olunmuş sessiyalar keçirilmişdir. Elektron ticarət mühitində dövlətlərin vergitutma bazalarının mühafizəsinə həsr olunmuş sessiyaya Ü.Yusifov sədrlik etmişdir.

Qeyd edək ki, Ü.Yusifov «İkiqat vergitutma sazişləri üzrə danışıqların aparılması üzrə praktiki Qaydaların» yazılması üzrə altkomitənin, «Hasilat sənayesinin vergiyə cəlb edilməsinə vergi sazişlərinin tətbiqi» üzrə altkomitənin, «Xidmətlərə tətbiq olunan vergi rejimləri» üzrə altkomitənin, «Məlumat mübadiləsi» üzrə altkomitənin, həmçinin «Bilik və bacarıqların təkmilləşdirilməsi» üzrə məsləhət qrupunun üzvüdür.

# Dövlət vergi orqanlarına işə qəbulun növbəti mərhələsi keçirilir

Test imtahanlarında müvəffəqiyyət qazanan namizədlər üçün müsabiqənin növbəti - müsahibə mərhələsi başlamışdır. Müsahibə prosesi nazirliyin inzibati binasında keçirilir. Bu il dövlət vergi orqanlarında işə qəbul zamanı test imtahanında iştirak etmək üçün elektron ərizə ilə müraciət edən 2303 nəfərin 1931-nin sənədləri qəbul olunmuş, imtahanda 1390 nəfər iştirak etmişdir.

İyun ayının 4-də keçirilən test imtahanlarını 76 nəfər uğurla başa vurmuş və onlar 2-ci mərhələyə - müsahibəyə buraxılmışlar. Bu mərhələdə doqquz nəfərdən ibarət müsabiqə komissiyası tərəfindən hər bir namizədlə fərdi qaydada müsahibə aparılır. Müsahibə zamanı namizədə onun Azərbaycan Respublikasının Konstitusiyasını, vergi qanunvericiliyini, iqtisadi siyasətlə bağlı digər normativ-hüquqi aktları tətbiq etmək sahəsində biliyinin və bacarığının, ümumi dünyagörüşünün, vergi orqanlarında xidmətə layiqli olmasının müəyyən edilməsi üçün suallar verilir. Bu mərhələdən də uğurla keçən namizədlər vergi orqanlarında işlə təmin olunmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, indiyədək keçirilmiş 9 belə müsabiqə nəticəsində vergi orqanlarında 1000 nəfərdən çox gənc kadr işə qəbul olunmuşdur.

# «Azərbaycanın vergi jurnalı»nın növbəti nömrəsi çapdan çıxmışdır

Vergilər Nazirliyinin resenziyalı elmi nəşri olan jurnalın bu nömrəsinin ənənəvi «Rəsmi» rubrikasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqının milli bayramı - Novruz bayramı münasibətilə ümumxalq şənliyində, Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə, Nazirlər Kabinetinin 2014-cü ilin I rübünün yekunlarına həsr edilmiş iclasında nitqlərinin xülasəsi verilmişdir. Rubrikada həmçinin vergilər naziri F.Məmmədovun Nazirlər Kabinetinin iclasındakı çıxışı da dərc olunmuşdur.




«Vergilər Nazirliyində» rubrikasında BVF-nin, Dünya Bankının, Slovakiya Respublikasının Maliyyə Nazirliyinin nümayəndələri ilə, həmçinin vergi orqanlarına işə qəbul edilmiş gənc kadrlarla nazirlikdə keçirilmiş görüşlər barədə məlumatlar verilmişdir.

Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Natiq Əmirovun «Nağdsız ödənişlər infrastrukturunun təkmilləşdirilməsi məqsədilə yeni nəsil ödəniş cihazlarının ölkəmizdə tətbiqi imkanları qiymətləndirilir» başlıqlı müsahibəsi də bu nömrədə öz yerini tutmuşdur.

«Aktual» rubrikasında Azərbaycan Respublikası Auditorlar Palatasının sədri prof. V.Novruzovun «Korrupsiyaya qarşı mübarizə yeni mərhələdə» başlıqlı analitik məqaləsi təqdim olunmuşdur.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin bu il 10 yanvar tarixli sərəncamı ilə 2014-cü ilin «Sənaye ili» elan edilməsi ölkəmizdə iqtisadi inkişafın yeni bir mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Bununla əlaqədar jurnalda «Sənayeləşdirmə ili» adlı yeni rubrika açılmışdır. Rubrikanın ilk qonağı Abşeron rayonu Xırdalan şəhərində yerləşən maşınqayırma təyinatlı «Asena Ko» MMC-nin rəhbəri Vahid Hümbətovdur. Onunla söhbətdə sahibkarlıq subyektlərinin sənayeləşmə prosesində yeri və rolundan ətraflı danışılmışdır.

«Qanunvercilik» rubrikasında oxucular «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı, «Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında» 2004-cü il 5 noyabr tarixli Sazişə əlavə və dəyişikliklər edilməsi barədə protokolun təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu, «Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli fərmanında dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə tanış ola biləcəklər.

Baş redaktor prof. E.Hacızadənin jurnal fəaliyyətə başladığı gündən redaksiya heyətinin üzvü olmuş görkəmli iqtisadçı alim, akademik Asəf Nadirovun unudulmaz xatirəsinə həsr etdiyi məqalədə mərhum alimin həyat yolu, elmi və ictimai fəaliyyəti haqqında söz açılmışdır.

Elmi məqalələr blokunda bu dəfə iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən tədqiqatların nəticələrinin əks olunduğu aşağıdakı məqalələr yerləşdirilmişdir: Türkiyənin Hacəttəpə Universitetindən prof. dr. Ahmet Burçin Yerel və Onur Uçarın «Türkiyə vergi sistemində vərəsəlik və bağışlama vergisinin tətbiqi mexanizmi», i.e.d. Y.Kəlbiyev və dissertant T.Nağıyevin «İkiqat vergitutma və onun aradan qaldırılmasının əsas aspektləri», i.f.d. P.Rzayevin və i.f.d. Z.Rzayevin «Vergi ödəyicilərinə xidmət sferasında işgüzar ünsiyyət və nitq mədəniyyətinin xüsusiyyətləri», t.e.f.d. S.İsmayılovun, k.e.f.d. F.Hüseynovun və i.e.d., prof. E.Hacızadənin «Azərbaycanda qara metallurgiya sənayesi: inkişaf mərhələləri və perspektivlər», i.e.f.d., dos. F.Hacıyevin «Müasir şəraitdə sənaye sahələrinə investisiya axınının səmərəliliyinin təhlili və qiymətləndirilməsi», i.e.f.d., dos. Ş.Əliyevin «Xüsusi iqtisadi zonalarda vergilərin mühüm aspektləri», i.e.f.d. L.Akgünün «Artan rəqabət mühitində daxili auditin önəmi və yoxlamada müstəqilliyin rolu», dissertant R.Əliyevanın «Vergi ödəyicilərinin uçotu sahəsində vergi nəzarətinin mövcud vəziyyəti».

«Dünya iqtisadiyyatı» rubrikasında Yaponiyanın iqtisadiyyatı, vergi sistemi haqqında oxuculara geniş məlumat verilmişdir. «Elm korifeyləri» rubrikasında oxuculara bu dəfə - 2003-cü ildə iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüş ABŞ iqtisadçısı Robert Fray İnqlın və ingilis iqtisadçısı Klayv Vilyam Con Qrengerin həyat və elmi yaradıcılıqlarına nəzər salınmışdır.

Bu nömrədə «İqtisadi terminlər lüğəti»nin dərci də davam etdirilmiş, sonda jurnalda elmi məqalələrini dərc etdirmək istəyənlər üçün «Müəllif qaydaları» verilmişdir.

# Çağrı mərkəzlərinin zirvə toplantısı

***İstanbulda çağrı mərkəzlərinin ikinci zirvə toplantısı keçirilmişdir. Özəl və dövlət sektorunu əhatə edən, habelə xarici iştirakçıların da dəvət olunduğu toplantıda enerji, maliyyə kimi sahələrlə yanaşı, əsasən dövlət sektorunda çağrı mərkəzlərinin fəaliyyəti müzakirə olunmuşdur.***

Zirvə toplantısında çağrı mərkəzlərinin faydaları, dizaynı və texniki təchizatı, tətbiq edilən yeniliklər, çağrı mərkəzlərində təlimin rolu kimi mövzularda təqdimatlar olmuşdur.

«UNİQ Eğitim & Danışmanlık» şirkətinin dəvəti ilə tədbirdə Azərbaycan Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsi rəisinin 1-ci müavini Elçin Məmmədov və rəis müavini Məhəmməd Yunusov iştirak etmişlər.



# Nağdsız ödənişlər şəffaflığa xidmət edir

*Ölkəmizdə dövriyyədə olan pul kütləsinin təhlili göstərir ki, nağd şəkildə aparılan əməliyyatların miqdarı nağdsız əməliyyatlara nisbətən çoxdur.*

Ölkədə nağd pul dövriyyəsinin miqyasının böyük olması iqtisadiyyatı iri həcmdə investisiya-kredit resurslarından məhrum edir, bank sisteminin maliyyə vasitəçiliyini məhdudlaşdırır. Bu, bir sıra struktur problemlərin, o cümlədən maliyyə intizamının pozulması, şəffaflığın aşağı olması, qeyri-mütəşəkkil pərakəndə ticarətin üstünlük təşkil etməsi və s. kimi problemlərin yaranmasına da gətirib çıxarır.

Bu problemlərin həllində elektron ödəniş sistemlərindən geniş istifadə, dövriyyədə olan pul kütləsində nağdsız ödənişlərin xüsusi çəkisinin artması və bank sisteminin resurs mənbələrinin əhəmiyyətli dərəcədə genişlənməsi münbit şərait yaradır.

Mərkəzi Bankın sədrinin birinci müavini Alim Quliyevin sözlərinə görə, nağdsız əməliyyatların artımı ilə bank sisteminin resurs bazası genişlənir, faiz dərəcələri azalır, iqtisadiyyatın kapitallaşma imkanları çoxalır və nəticədə iqtisadi artım sürətlənir. Nağdsızlaşma makroiqtisadi idarəetməni asanlaşdırmaqla iqtisadiyyata təsir vasitələrini artırır.

Son 10 ildə Mərkəzi Bank tərəfindən müasir texnologiya və arxitekturaya malik Milli Ödəniş Sisteminin yaradılması sayəsində ölkədə nağdsız dövriyyənin həcmi əhəmiyyətli dərəcədə böyümüşdür. 2003-cü ildən bəri nağd pulun manatla geniş pul kütləsində xüsusi çəkisi 20 faiz bəndi azalmışdır. Elektron Milli Ödəniş Sistemi vasitəsilə 2013-ci il ərzində aparılmış ödənişlərin həcmi 128 mlrd. manat təşkil etmişdir ki, bu da ÜDM-ə nisbətdə 2,3 dəfə çoxdur.

Vergilər Nazirliyi də öz sahəsində vergi və rüsumların elektron formada ödənilməsi üçün mühüm tədbirlər həyata keçirir. Nazirlər Kabinetinin qərarı ilə «Vergi ödəyicisinə verilmiş vergi hesab-fakturası üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları» təsdiq edilmişdir. Bununla əlaqədar nazirlik tərəfindən ƏDV-nin depozit hesabı və ƏDV sub-uçot hesabları üzrə vəsaitlərin uçotunu aparan, vergi ödəyicilərinə ƏDV-nin depozit hesabından istifadə imkanı yaradan İnternet Vergi İdarəsinin müvafiq modulu istifadəyə verilmişdir. Hər bir vergi ödəyicisi bu moduldan istifadə edərək depozit hesabdan əməliyyatların aparılması imkanı əldə etmişdir. ƏDV depozit hesabının üstünlükləri, vəsaitlərin dövlət büdcəsinə elektron formada ödənilməsi qaydaları barədə vergi ödəyiciləri daim məlumatlandırılır. Bunun nəticəsidir ki, qısa müddətdə mühüm nəticələr əldə olunmuşdur. Vergi ödəyicilərinə daha əlverişli şərait yaratmaq məqsədilə Vergilər Nazirliyi, Mərkəzi Bank və bank idarələri arasında hesabların açılması və hesablanmış vergilər üzrə borcların, faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün banklara təqdim olunan şəhadətnamə-dublikatların və sərəncamların elektron mübadiləsi aparılmaqdadır. Hazırda 34 bank Vergilər Nazirliyi ilə elektron mübadiləyə qoşulmuşdur.

***«Elə etməliyik ki, ticarət, məişət, iaşə obyektlərində nağd şəkildə ödəmələr minimuma endirilsin. ...Belə olan halda, əlbəttə ki, vergilər bazası heç səy göstərilmədən, avtomatik olaraq genişlənəcəkdir».***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



Vergilər Nazirliyi tərəfindən 2013-cü ildə 7048 POS-terminal aparatı qeydiyyata alınmış, 2014-cü il yanvarın 1-i vəziyyətinə onların ümumi sayı 31885-ə çatmışdır. 2014-cü ilin sonuna kimi ölkədə POS-terminalların sayının 82,5 minə çatdırılması nəzərdə tutulmuşdur.

Cari il mayın 1-nə quraşdırılmış POS-terminalların sayı 42790 ədəd olub ki, bunun 32613-ü Bakı şəhərində, 10177-si isə regionlardadır. Martın 1-dək ölkə üzrə dövriyyədə olan ödəniş plastik kartlarının sayı keçən ilin müvafiq dövrünə nisbətən 12,11% artaraq 5908 minə çatmışdır. Bankomatlar və POS-terminallar vasitəsilə ödəniş kartları ilə aparılan əməliyyatların sayı 836 min olmuşdur.

Respublikada nağdsız dövriyyənin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması, habelə ödəniş xidmətlərinin institusional və hüquqi bazasının daha da genişləndirilməsi məqsədilə «Azərbaycan Respublikasında müasir elektron ödəniş xidmətlərindən istifadənin genişləndirilməsi üzrə 2013-2017-ci illər üçün Dövlət Proqramı» hazırlanmışdır. Dövlət Proqramında müasir elektron ödəniş alətləri və bank texnologiyalarından istifadənin genişləndirilməsi, elektron ticarətin inkişafının sürətləndirilməsi, nağdsız dövriyyənin xüsusi çəkisinin artırılması, ödəniş sistemləri və hesablaşmalar sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi və digər mühüm tədbirlər nəzərdə tutulmuşdur.

Nağdsız ödəmələrin səviyyəsini ölkə iqtisadiyyatının inkişaf səviyyəsinə qaldırmaq üçün «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanunun tətbiqi ilə bağlı dövlət başçısı İlham Əliyevin imzaladığı fərmanla Vergilər Nazirliyinə ölkə iqtisadiyyatında şəffaflığın artırılması və maliyyə intizamının gücləndirilməsi məqsədilə nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı təkliflər paketinin hazırlanması barədə tapşırıq verilmişdir. Tapşırığın icrası məqsədilə qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq ölkə iqtisadiyyatındakı mövcud durum və iqtisadiyyatın spesifikasıyası nəzərə alınmaqla nağdsız hesablaşmalara üstünlük verilməsini, müasir dünyanın istifadə etdiyi ödəniş alətlərinin tətbiqinin genişləndirilməsini stimullaşdıran təkliflər paketi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilmişdir. Təkliflər hazırlanarkən iqtisadi faktorlarla yanaşı, psixoloji amillər, yerli mentalitet və digər xüsusiyyətlər də nəzərə alınmışdır.

**Rəşad SADIQOV**

# Kredit almaq imkanları genişlənir

## *Bu məqsədlə Sahibkarlığa Kömək Milli Fondunun (SKMF) səlahiyyətləri artırılıb*

*Nazirlər Kabinetinin «Ölkədə sahibkarlığın inkişafı ilə bağlı digər mənbələrdə nəzərdə tutulan vəsaitlərin Sahibkarlığa Kömək Milli Fondunda cəmləşdirilməsi haqqında» qərarına əsasən, SKMF-nin kredit vermək imkanları çoxalıb. Bundan sonra fond iqtisadi layihələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyaları sahəsində investisiya layihələrini də maliyyələşdirəcək, İKT sektorunda çalışan yerli sahibkarlar fonddan güzəştli şərtlərlə kredit əldə edə biləcəklər.*

SKMF-nin şöbə müdiri Samir Hümbətovun sözlərinə görə, son illərdə sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyi daha da yaxşılaşıb, güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artıb. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılması məqsədilə regional inkişaf proqramlarının icrası dövründə SKMF-nin vəsaitləri hesabına ölkə üzrə ümumilikdə 19,1 min sahibkarlıq subyektinə 1,2 milyard manat güzəştli kredit verilib. Güzəştli kreditlərin əhatə dairəsinin artırılması ölkədə yeni iş yerlərinin yaradılması baxımından da mühüm əhəmiyyət kəsb edir: verilmiş hər 10 min manat vəsait hesabına orta hesabla 1 iş yeri yaradılır. Ötən dövr ərzində sahibkarlıq subyektlərinə verilmiş vəsaitin icrası sayəsində yüzlərlə müəssisə və 110 min yeni iş yeri yaradılıb.

*Sahibkarlara maliyyə dəstəyinin mühüm formalarından biri bölgələrdə kredit yarmarkalarının genişləndirilməsi, yarmarkalarda təqdim olunan vəsaitlərin həcminin artırılmasıdır*

Sahibkarlığa maliyyə dəstəyinin artırılması yeni subyektlərin sayının artırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Bunun nəticəsidir ki, hər ay qeydə alınan sahibkarlıq subyektlərinin sayında əhəmiyyətli artım müşahidə olunur. Son 10 ildə məşğulluqda özəl sektorun payı 68%-dən 74%-ə yüksəlib, sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artıb. Bu sahədə ən mühüm nailiyyətlərdən biri daha çox rayonlarda yeni sahibkarlıq subyektlərinin yaradılmasıdır.

Sahibkarlara maliyyə dəstəyinin mühüm formalarından biri bölgələrdə kredit yarmarkalarının genişləndirilməsi, yarmarkalarda təqdim olunan vəsaitlərin həcminin artırılmasıdır. SKMF rəsmisi 2014-2018-ci illərdə bölgələrdə sahibkarlığın inkişafı üçün geniş vüsət alan kredit yarmarkalarının davamlı xarakter alacağını bildirir.

Müasir texnologiyalara əsaslanan investisiya layihələrinə çörək istehsalı zavodlarının, iri taxılçılıq və ya toxumçuluq, üzümçülük təsərrüfatlarının və üzüm emalı müəssisələrinin, istixana komplekslərinin, südlük və ətlik istiqamətli cins heyvandarlıq komplekslərinin yaradılması daxildir. Güzəştli kreditlər hesabına maliyyələşdiriləcək layihələrə meyvə-tərəvəz emalı müəssisələrinin, sənaye (yüngül, maşınqayırma və s.) müəssisələrinin yaradılması, kiçik sahibkarlığın (o cümlədən əlillərə, məcburi köçkünlərə, gənclərə və qadınlara aid) inkişafı, intensiv bağçılıq (alma, armud, gilas, nar, ərik, xirnik, gavalı və s.) və ya tingçilik təsərrüfatlarının təşkili nəzərdə tutulur. İqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdiri Zaur Qasımovun sözlərinə görə, yeni qərar iqtisadiyyatın bir çox sahələrində maliyyələşmənin əhatəsinin genişlənməsinə səbəb olacaq. Sahibkarlığın inkişafına dövlətin maliyyə dəstəyinin gücləndirilməsi nəticəsində güzəştli kreditlərin həcmi əhəmiyyətli dərəcədə artacaq.

Üçüncü regional inkişaf proqramı çərçivəsində sahibkarlığın istehsal, bazar və sosial infrastruktur təminatının yaxşılaşdırılması, o cümlədən müasir bazar infrastrukturu mexanizmlərinin (maliyyə, bank və sığorta sisteminin, fond bazarının, audit, ipoteka, lizinq, françayzinq kimi xidmətlərin) inkişafının sürətləndirilməsi nəzərdə tutulur.

2014-2018-ci illərdə sahibkarlığın inkişafı sahəsində tədbirlərə dövlət maliyyəsi ilə yanaşı, alternativ maliyyə mənbələrinin daha da aktivləşdirilməsi üzrə zəruri mühitin yaradılması da nəzərdə tutulur. Bu məqsədlə bankların öz daxili mənbələri hesabına sahibkarlara aşağı faizlərlə kredit verməsi, kənd təsərrüfatı mülkiyyətçilərinə lizinq şirkətləri vasitəsilə texnika alınmasında güzəştli şərtlərin təklif olunması, kiçik və orta sahibkarların banklarla yanaşı kredit ittifaqları vasitəsilə maliyyə əldə etmək imkanlarının artırılması üçün tədbirlər görüləcək. Start kapitalının formalaşması, kapital qoyuluşlarının maliyyələşməsi üçün uzunmüddətli kredit almaq imkanlarının artırılması, öncül sahələrdə sahibkarlığın inkişafına yönəldilmiş təşkilati tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, müxtəlif istiqamətlərdə davamlı və sistemli xidmətlər göstərən təsisatların yaradılması başlıca vəzifələr sırasındadır. Mərkəzi Bank və Maliyyə Nazirliyinin təkliflərinə əsasən, ortamüddətli dövrdə özəl bankların sahibkarlıq subyektlərinə sərfəli kredit və sığorta mexanizmlərinin tətbiqi planlaşdırılır.

**E.CƏFƏRLİ**

# Əməkdaşlığın yeni prioritetləri

## *BMT ilə Azərbaycan arasında yeni strateji əməkdaşlıq barədə sənəd imzalanacaq*

*BMT ilə ölkəmizin qarşıdakı illərdə əməkdaşlığının əsas istiqamətləri insan kapitalının inkişafı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsulluqla mübarizə və digər sahələrlə bağlı olacaq.*



Azərbaycan hökuməti və BMT tərəfindən «2011-2015-ci illər üçün Azərbaycanda Birləşmiş Millətlər Təşkilatının İnkişafa Yardım üzrə Çərçivə Sənədi» imzalanıb və bu, «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı»nda əks olunan milli inkişaf məqsədlərinə uyğunlaşdırılıb. Hazırda həmin məqsədlərin başlıca komponentləri, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi, ətraf mühitə mənfi təsirin azaldılması, əhalinin keyfiyyətli səhiyyə, təhsil və sosial müdafiə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması və digər istiqamətlər üzrə tədbirlər uğurla davam etdirilir.

İqtisadiyyat və sənaye naziri Şahin Mustafayev bildirib ki, Azərbaycanın hazırkı inkişaf səviyyəsi, əldə edilən nailiyyətlər növbəti mərhələdə BMT-nin müvafiq qurumları ilə ölkəmizin əməkdaşlığına yeni müstəvidə baxılmasını zəruri edir. Hazırda tərəflər arasında əməkdaşlıq üzrə prioritet sahələr müəyyənləşdirilir. Dövlət, özəl sektor və vətəndaş cəmiyyətinin nümayəndələrinin təklifləri əsasında hazırlanacaq sənəd BMT-nin müvafiq qurumlarına təqdim olunacaq. Birgə əməkdaşlığın prioritetləri 2016-2020-ci illəri əhatə edəcək Tərəfdaşlıq Çərçivəsi sənədində öz əksini tapacaq.

BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Antonius Brukun sözlərinə görə, Azərbaycanda formalaşmış siyasi və iqtisadi sabitlik iqtisadiyyatın bir çox bölmələrində artıma səbəb olub, keyfiyyətli və ləyaqətli insan yaşayışı normalarının möhkəmlənməsinə zəmin yaradıb. Cənab Brukun sözlərinə görə, BMT-nin qəbul etdiyi «Minilliyin İnkişaf Məqsədləri» təşəbbüsünə qoşulan əsas dövlətlərdən biri kimi, Azərbaycan qarşıdakı illərdə əhalinin əsas ehtiyaclarının daha dolğun ödənilməsi üçün zəruri tədbirləri görmək imkanındadır. İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova bildirib ki, «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» əhalinin rifah halının yaxşılaşdırılması və yoxsulluğun səviyyəsinin azaldılması məqsədinə xidmət edir. Proqrama əsasən, 2015-ci ilədək əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunması; səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması; qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi; təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi və onları əldə etmək üçün bərabər imkanların yaradılması; sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi; ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi və s. tədbirlər nəzərdə tutulur. Yoxsulluğun azaldılması həm də iqtisadiyyatın uğurlu diversifikasiyası, enerji gəlirlərinin səmərəli istifadə olunması, sahibkarlığın inkişafına yaradılan şərait, regionların inkişafına xidmət edən dövlət proqramlarının uğurla reallaşdırılması və bu qəbildən olan digər addımlar sayəsində mümkün olub. Bundan başqa, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin, o cümlədən əməkhaqlarının tənzimlənməsi, həssas qrupların məşğulluğunun inkişaf etdirilməsi yoxsulluq probleminin həllində böyük əhəmiyyət kəsb edib. 2015-ci ilə kimi ölkədə yoxsulluğun tamamilə həlli qarşıya ciddi vəzifələrdən biri kimi qoyulub.

**Elbrus CƏFƏRLİ**

# Əhalinin gəlirləri artır

2014-cü ilin yanvar-may aylarında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,4% artaraq 15,0 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi 1603,9 manat və ya ayda orta hesabla 320,8 manat təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını 1,4 faiz bəndi üstələyərək 3,1% olmuşdur.

Bu dövr ərzində gəlirlərin 70,3%-i son istehlaka, 9,0%-i vergilər, sosial sığorta və üzvlük haqlarının, 2,5%-i kreditlər üzrə faizlərin ödənilməsinə, 18,2%-i isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir.

Əhalinin sərəncamında qalan gəlir 13,7 milyard manat təşkil edərək əvvəlki ildəkinə nisbətən 4,6% artmışdır.



Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## Mənfəət vergisi

***Təmsil etdiyim müəssisə xarici dövlətin rezident hüquqi şəxsinin Azərbaycan Respublikasında nümayəndəliyi kimi qeydiyyatdan keçib. Müəssisə mənfəət vergisini hansı qaydada ödəməlidir?***

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (VM) 19.1-ci maddəsinə əsasən, bu ölkədə qeyri-rezident hüquqi şəxsin və ya qeyri-rezident fiziki şəxsin daimi nümayəndəliyi həmin şəxslərin istənilən 12 ay ərzində Azərbaycan Respublikasında üst-üstə 90 gündən az olmayaraq bilavasitə və ya müvəkkil edilmiş şəxs vasitəsilə tam və ya qismən sahibkarlıq fəaliyyətini həyata keçirdiyi yerdir. VM-in 33.4-cü maddəsində göstərilir ki, daimi nümayəndəliyin vergi orqanlarında uçota alınması Azərbaycan Respublikasının hüquqi şəxsləri üçün müəyyən edilmiş qaydada həyata keçirilir. Göründüyü kimi, hər hansı xarici dövlətin rezidentinin Azərbaycan Respublikasında nümayəndəliyi və ya filialı kimi qeydiyyatdan keçən müəssisəsinin Azərbaycan Respublikası ərazisində həmin xarici hüquqi şəxsin kommersiya fəaliyyəti VM ilə müəyyən edilmiş müvafiq vergilər üzrə vergitutma obyekti yaradır.

VM-in 104.2-ci maddəsinə əsasən, Azərbaycanda özünün daimi nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən qeyri-rezident müəssisə bu fəaliyyətdən əldə etdiyi mənfəətindən, yəni daimi nümayəndəliyin fəaliyyəti ilə bağlı Azərbaycan mənbəyindən əldə etdiyi ümumi gəlirinin həmin gəlirin əldə edilməsinə çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğindən vergi ödəyir.

VM-in 83.9-cu maddəsinə görə, vergi ödəyicisinin əldə etdiyi mənfəəti birbaşa müəyyən etmək mümkün olmadığı halda, həmin mənfəət müvafiq icra hakimiyyəti orqanı (Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş qaydalar əsasında hesablanır. Bununla əlaqədar olaraq Azərbaycan Nazirlər Kabineti tərəfindən 2001-ci il 1 mart tarixli qərarla «Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydaları» təsdiq edilmişdir.

Göstərilən Qaydaların 2-ci bəndinə əsasən, Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda fəaliyyət göstərən xarici hüquqi şəxsin Azərbaycan Respublikasında daimi nümayəndəlik vasitəsilə həyata keçirdiyi fəaliyyətdən əldə etdiyi mənfəəti birbaşa müəyyən etmək mümkün olmadıqda onun mənfəəti Vergilər Nazirliyinin rəyi əsasında vergi ödəyicisi ilə müvafiq vergi orqanı arasında razılaşdırılmış üsul əsasında müəyyən edilə bilər. Bu məqsəd üçün konkret halda aşağıdakı meyarlardan biri qəbul edilir:

- Azərbaycan Respublikasında məhsul (iş, xidmət) satışından gəlirin məbləği;
- Azərbaycan Respublikasında fəaliyyətlə əlaqədar olan xərclərin məbləği;
- Azərbaycan Respublikasındakı daimi nümayəndəliyin işçilərinin sayı.

Qaydaların 3.3-cü bəndinə əsasən, xarici hüquqi şəxsin mənfəəti şərti üsulla müəyyən edilərkən şərti rentabellik norması (R) 20 faiz səviyyəsində götürülür.

Xarici dövlətin rezidenti tərəfindən maliyyələşdirilən xarici hüquqi şəxsin Azərbaycandakı filialının və ya nümayəndəliyinin bu ölkədə göstərdiyi fəaliyyəti nəticəsində əldə etdiyi mənfəətinin məbləği, onun nümayəndəliyinin (filialının) saxlanması xərclərinin məbləğinə 20% şərti rentabellik norması tətbiq etməklə hesablanmış mənfəətə VM-in 105.1-ci maddəsi ilə müəyyən edilmiş 20% dərəcə ilə mənfəət vergisi hesablanır.

Bundan başqa, VM-in 126-cı maddəsində qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəətindən ödəmə mənbəyində vergi tutulmasının şərti müəyyənləşdirilib: daimi nümayəndəlikdən mənfəət vergisindən əlavə, nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentə köçürdüyü (verdiyi) məbləğdən 10% dərəcə ilə vergi tutulur.

# Azərbaycanda makroiqtisadi sabitlik möhkəmlənir

## *Strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbətinə görə respublikamız ilk iyirmi dövlət sırasına daxil olub*

*Son illər ölkədə həyata keçirilən iqtisadi siyasətin əsas hədəflərindən biri neft və qaz gəlirlərindən düzgün istifadə edərək həm iqtisadiyyatın şaxələndirilməsi tədbirlərini ardıcıl şəkildə davam etdirmək, həm də ehtiyat maliyyə mənbələri yaratmaqla makroiqtisadi sabitliyi qorumaqdır.*

Müxtəlif beynəlxalq maliyyə institutlarının və reytinq agentliklərinin Azərbaycanla bağlı son illərdəki nikbin proqnozları da respublikamızdakı makroiqtisadı sabitliyə əsaslanır. Xüsusilə də qlobal böhrandan sonrakı mərhələdə ölkədə ümumi daxili məhsulun (ÜDM) artım tempinin ilbəil yüksəlməsi respublikanın makroiqtisadi sabitlik indeksi üzrə irəliləməsini təmin edir.

Ölkəmizin dinamik inkişaf yolunda olduğunu Beynəlxalq Valyuta Fondunun (BVF) «Word Economic Outlook» hesabatında əksini tapmış göstəricilər də təsdiqləyir. Təşkilat 2014-cü ildə Azərbaycanda ümumi daxili məhsulun 5%, 2015-ci ildə 4,6% səviyyəsində olacağını proqnozlaşdırıb. Qurumun hesabatına görə, Azərbaycanda iqtisadi artım 2016-cı ildə 3,48%, 2017-ci ildə 3,22% səviyyəsində olacaq. BVF analitikləri 2014-cü ildə Azərbaycanda ÜDM-in 61,6 milyard manat, 2015-ci ildə 67,47 milyard manat, 2016-cı ildə 72,7 milyard manat, 2017-ci ildə 79,77 milyard manat təşkil edəcəyini proqnozlaşdırırlar. Müqayisə üçün bildirək ki, 2013-cü ildə Azərbaycanda bu göstərici 57,71 milyard manat təşkil edib. Maliyyə qurumu adambaşına düşən ÜDM-in 2013-cü ildəki 6 min 199 manatdan 2014-cü ildə 6 min 568 manata, 2015-ci ildə 7 min 133 manata, 2016-cı ildə 7 min 626 manata, 2017-ci ildə 8 min 300 manata çatacağını proqnozlaşdırır.

Azərbaycanın iqtisadi uğurları həm də ölkəmizdə strateji valyuta ehtiyatlarından səmərəli istifadə mexanizmlərinin formalaşması ilə şərtlənir. Hökumət karbohidrogen resurslarının satışından əldə olunan gəlirin etibarlı şəkildə qorunmasını, düzgün istifadə olunmasını, gəlir gətirən layihələrə yönəldilməsini daim diqqətdə saxlayır. Bunun nəticəsi olaraq ölkədə son 3 ildə valyuta ehtiyatlarının kəskin artımı müşahidə edilir. 2014-cü ilin birinci rübünün yekunlarına görə, Azərbaycanın strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbəti dəyişməyib və 70%-ə yaxındır. Azərbaycan Mərkəzi Bankının (AMB) cari ilin birinci rübünün yekunları üzrə pul siyasəti icmalında göstərilir ki, bu, 2012-2013-cü illərin göstəricisi ilə eynilik təşkil edir və dəyişməyib. 2011-ci ildə strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbəti 64%, 2010-cu ildə 58%, 2009-cu ildə 47%, 2008-ci ildə isə 37% təşkil edib. 2014-cü ilin yanvar-mart aylarında ölkənin strateji valyuta ehtiyatları 5,2%, yaxud 2,6 milyard dollar artaraq 52,8 milyard dollara yüksəlib. AMB-nin sərəncamında olan valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 4% artaraq 14,7 milyard dollar olub. AMB strateji valyuta ehtiyatlarının ÜDM-ə nisbətinə görə respublikamızın dünya ölkələrinin ilk iyirmiliyinə daxil olmasını da kifayət qədər uğurlu göstəricilərdən biri hesab edir. Ölkənin strateji valyuta ehtiyatları kifayətlilik üzrə beynəlxalq normaları da əhəmiyyətli dərəcədə üstələyib. Ümumilikdə, strateji valyuta ehtiyatlarının yüksək templə artımı ölkə iqtisadiyyatının mümkün xarici böhran təsirlərinə qarşı həssaslığını azaldır və güclü «makroiqtisadi sipər» formalaşdırır.

*Respublikamızda makroiqtisadi sabitliyin davamlılığı, strateji valyuta ehtiyatlarının dinamik artımı adekvat olaraq ölkənin investisiya cəlbediciliyinin yüksəlməsinə də səbəb olub*

2014-cü ilin birinci rübündə qiymət sabitliyi təmin edilib və inflyasiyanın səviyyəsi proqnoz çərçivəsində olub. Makroiqtisadi sabitliyin qorunması məqsədilə AMB-nin əsas fəaliyyəti inflyasiyanın birrəqəmli səviyyədə saxlanılması, manatın məzənnəsinin sabitliyi, maliyyə sabitliyinin və dayanıqlılığının qorunması məsələlərinə yönəldilib. Ticarət tərəfdaşları ilə müqayisədə qiymətlərin artım tempinin aşağı olması iqtisadiyyatın rəqabət qabiliyyətliliyini yüksəldib. Rüblük inflyasiya cəmi 2% təşkil edib ki, bu da əhali gəlirlərinin real artımına əlverişli şərait yaradıb. Manatın məzənnəsinin sabitliyi inflyasiyanın təkrəqəmli səviyyədə saxlanmasında mühüm rol oynayıb. Bu, qeyri-neft sektorunun artımına və ölkənin ixrac potensialının yüksəlməsinə təkan verib: manatın nominal ikitərəfli məzənnəsinin dinamikası real ikitərəfli məzənnələrin dəyişməsinə təsir göstərib.

Respublikamızda makroiqtisadi sabitliyin davamlılığı, strateji valyuta ehtiyatlarının dinamik artımı adekvat olaraq ölkənin investisiya cəlbediciliyinin yüksəlməsinə də səbəb olub. Sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər - biznesə başlama prosedurlarının sadələşdirilməsi, vergi dərəcələrinin azaldılması və müəyyən güzəştlərin tətbiqi, gömrük sisteminin təkmilləşdirilməsi, dövlət qurumlarının fəaliyyətində e-xidmətlərin geniş tətbiqi və digər tədbirlər respublikanın investsiya cəlbediciliyini yüksəldib. 2014-cü ilin birinci rübündə ölkə iqtisadiyyatına investisiya qoyuluşlarının həcmi 7% artaraq 3,1 milyard manat təşkil edib. Hesabat dövründə ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların həcmi 1 milyard manatdan çox olub. Qeyri-neft sektoruna investisiyaların ümumi investisiya qoyuluşlarında xüsusi çəkisi 56,2%-dir. Əsas kapitala yönəldilmiş vəsaitin 67,5%-i daxili, 32,5%-i isə xarici mənbələr hesabına formalaşıb.

Ölkənin idxal-ixrac əməliyyatlarının da həcmi nəzərəçarpacaq dərəcədə artıb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2014-cü ilin birinci rübündə ölkənin xarici ticarət dövriyyəsi 7,1 milyard dollar təşkil edib: bunun 5,4 milyardı ixracın, 1,7 milyardı isə idxalın payına düşür. Xarici ticarət balansının profisiti 3,7 milyard olmaqla ixrac idxalı 3 dəfəyədək üstələyib.

**S.MUSTAFAYEV**

# Risklərin aradan qaldırılması üçün...

*Sabirabad rayonunda ardıcıl olaraq üç hesabat dövrü üzrə hesablanmış vergiləri borca çevrilmiş sahibkarlarla görüş keçirilmişdir.*

Bəzən vergi ödəyiciləri bəyannamələrini vaxtında təqdim etsələr də vergi borclarını müxtəlif səbəblər üzündən vaxtında ödəmirlər ki, bu da onlar üçün ciddi problemlər yaradır. 5 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə aid Sabirabad rayonunda sahibkarlıq fəaliyyəti ilə məşğul olan 196 vergi ödəyicisinin təqdim etdikləri bəyannamələrdə göstərdikləri vergi məbləğinin borca çevrildiyi aşkar olunmuşdur. Növbəti hesabat dövrlərində bu riskin aradan qaldırılması və vergi borclarının yaranmasının qarşısının alınması məqsədi ilə iyunun 12-də son üç hesabat dövrü üzrə hesablanmış vergiləri borca çevrilmiş vergi ödəyiciləri ilə görüş keçirilmişdir. Görüşdə borcların yaranma mənbələri, təqdim edilən bəyannamələrdə hesablanmış vergilərin vaxtında ödənilməsinin zəruriliyi diqqətə çatdırılmış, vergi borcları vaxtında ödənilmədikdə vergi orqanları tərəfindən həyata keçirilən inzibati tədbirlər haqqında ətraflı məlumatlar verilmişdir. Tədbirdə iştirak edən vergi ödəyicilərinin mövqeləri dinlənilmişdir. Onlar vergi borclarının qısa müddət ərzində dövlət büdcəsinə ödəniləcəyini və növbəti hesabat dövrlərində vergi bəyannamələrində hesablanacaq vergiləri qanunla müəyyən edilmiş vaxtlarda ödəyəcəklərini bildirmişlər.




# 5 ay ərzində 11 mindən çox vətəndaş işlə təmin olunub

Əhalinin məşğulluq səviyyəsinin artırılması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması ölkədə işsiz və iş axtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsində mühüm rol oynayır. Səmərəli məşğulluq siyasətinin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması, peşə hazırlığı və əlavə təhsil şəbəkəsinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması, iş axtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşdırılması və s. «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı»nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsindən gözlənilən nəticələrdir.

Bu gözləntilərin reallaşdırılması üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Xidməti silsilə tədbirlər həyata keçirir. Əmək yarmarkalarının təşkili, məşğulluq xidməti orqanları tərəfindən gənclərin peşə seçiminə kömək məqsədi ilə peşəyönümlü işlərin aparılması, işsiz statusunun verilməsi, işsizlik müavinətinin təyin olunması və ödənilməsi, haqqı ödənilən ictimai işlər, əmək birjaları vasitəsilə vətəndaşların müvəqqəti məşğulluğunun təmin edilməsi həyata keçirilir, işəgötürənlərə lazımi kadrların seçilməsində kömək göstərilir. Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən cari ilin yanvar-may ayları ərzində 11 min nəfərdən çox işsiz və işaxtaran işlə təmin olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, bu dövrdə haqqı ödənilən ictimai işlərə cəlb olunanların sayı 493 nəfər təşkil edib. Dövlət Məşğulluq Xidmətinin Bakı, Sumqayıt, Gəncə və Mingəçevir şəhərlərindəki əmək birjaları tərəfindən cari ilin yanvar-may aylarında 1298 nəfərə müvəqqəti xarakterli iş yerlərinə göndəriş verilib.



*Bu dövrdə haqqı ödənilən ictimai işlərə cəlb olunanların sayı 493 nəfər təşkil edib*

İşsiz və işaxtaran vətəndaşların əmək bazarına çıxışının asanlaşdırılması üçün həyata keçirilən aktiv məşğulluq tədbirlərindən biri də mövcud əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kurslarının təşkilidir. 5 ay ərzində Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən paytaxt Bakıda, eləcə də respublikanın digər rayon və şəhərlərində bərbər, qaynaqçı, dərzi, kompüter dizayneri və s. peşələr üzrə 77 kurs təşkil edilib və kurslara ümumilikdə 1409 nəfər işsiz və işaxtaran vətəndaş cəlb olunub.

Bu dövrdə respublikanın paytaxtında, eləcə də 6 rayon və şəhərində əmək yarmarkaları keçirilib və yarmarkalar vasitəsilə 919 nəfər işaxtaran və işsiz vətəndaşa münasib iş yerlərinə göndəriş verilib. Yarmarkalar zamanı 117 nəfər peşə hazırlığı kurslarına, 14 nəfər isə haqqı ödənilən ictimai işlərə cəlb olunmaları üçün qeydiyyata alınıb. Məzun və tələbələrin əmək bazarına inteqrasiyası məqsədilə ayrı-ayrı ali təhsil müəssisələrində keçirilən aktiv məşğulluq tədbirlərində vakant iş yerlərinə göndəriş verilənlərin sayı 619 nəfər, peşə hazırlığı kurslarına cəlb olunanların sayı 163 nəfər, əmək birjasında qeydiyyata alınanların sayı 132 nəfər olub. İşəgötürənlər tərəfindən gələcəkdə kadr seçiminin aparılması üçün ümumilikdə 2560 tələbə və məzundan ərizələr qəbul edilib.

**AYTƏN**

# Müsabiqənin nəticələri açıqlanmışdır

***İyunun 12-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin birgə təşkilatçılığı ilə «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.***

Tədbiri giriş sözü ilə açan Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirmişdir ki, rəhbərlik etdiyi qurumun müxtəlif dövlət orqanları ilə birgə təşkil etdiyi müsabiqələr ölkə jurnalistlərinin yaradıcı fəaliyyətinin stimullaşdırılmasına, peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və maddi vəziyyətlərinin yaxşılaşdırılmasına xidmət edir. Qeyd olunmuşdur ki, ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram olaraq «Vergilər» qəzeti və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə ikinci ildir ki, keçirilən «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda müsabiqə nazirliklə kütləvi informasiya vasitələri arasında əlaqələrin daha da genişləndirilməsinə imkan yaradır. Vergilər Nazirliyinin mətbuat üçün açıq və şəffaf qurum olduğunu diqqətə çəkən Ə.Amaşov bildirmişdir ki, mayın 1-dən 31-dək keçirilmiş müsabiqə cəmiyyətin vergilər sahəsində maarifləndirilməsi, insanlarda vergi mədəniyyətinin yüksəldilməsi baxımından əhəmiyyətlidir: «Müsabiqə mövzularının hər biri ümumən cəmiyyətin vergilər sahəsində maarifləndirilməsi baxımından vacibdir. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi partnyorluğu: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə 64 yazının təqdim edilməsi də medianın vergilər mövzusuna böyük maraq göstərdiyini təsdiqləyir».



«Vergilər» qəzetinin baş redaktoru Anar Əliyev bildirmişdir ki, müsabiqənin təşkilində məqsəd müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılmasında peşəkar jurnalist yaradıcılığının stimullaşdırılması olmuşdur. Bu il müsabiqəyə marağın daha da artdığını deyən A.Əliyev ölkə jurnalistlərinin nümayiş etdirdikləri fəallığı, televiziya təmsilçilərinin də prosesdə iştirakını yüksək qiymətləndirmişdir. Qeyd edilmişdir ki, müsabiqə üçün seçilmiş mövzular mahiyyətcə ictimaiyyətin maarifləndirilməsinə, eləcə də ölkə başçısının hökumət qurumları, o cümlədən Vergilər Nazirliyi qarşısında müəyyənləşdirdiyi vəzifələr barədə məlumatlandırılmasına xidmət edir: «Müsabiqəyə «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti» istiqaməti üzrə 23, «Vergi Partnyorluğu Sazişi: qarşılıqlı inam və etimad körpüsü» istiqaməti üzrə 20, «Əmək müqaviləsi: gələcəyə təminat» istiqaməti üzrə 21 yazı təqdim edilmişdir. Müsabiqə Azərbaycanın iqtisadi inkişafının keyfiyyətcə yeni mərhələsində Vergilər Nazirliyi və digər dövlət qurumları qarşısında duran prioritetləri əhatə etmişdir. Kifayət qədər oxucu auditoriyası, habelə ictimai rəyə təsir imkanları olan qəzetlərdə, habelə internet portallarında bu mövzularda çoxsaylı yazıların dərc olunması əhalinin maarifləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir».

Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli belə müsabiqələrin təşkilini təqdir edərək kütləvi informasiya vasitələrinə ölkə rəhbərliyi səviyyəsində yüksək diqqət və qayğının mövcud olduğunu diqqətə çatdırmışdır. O qeyd etmişdir ki, «Vergilər» qəzetinin və Azərbaycan Mətbuat Şurasının təşkil etdiyi müsabiqə jurnalistlərin ixtisaslaşması, onların vergilər sahəsində aktual məsələlərlə bağlı tədqiqatlar aparması baxımından əhəmiyyətlidir. V.Səfərli jurnalist peşəkarlığı məsələlərinə də toxunaraq müəllifləri müsabiqə mövzularına daha məsuliyyətlə yanaşmağa, mövzular ətrafında jurnalist araşdırması aparmağa çağırmışdır.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli müsabiqələrin ümumən jurnalistlərin peşəkarlıq səviyyələrinin artırılmasına müsbət təsir göstərdiyini vurğulamışdır. Qeyd olunmuşdur ki, müsabiqə yazıları peşəkar ekspertlər tərəfindən qiymətləndirilərkən əvvəlcədən elan edilmiş şərtlərə müvafiq olaraq mövzunun əhatəliliyi, jurnalist araşdırması, əsaslandırma, materialın oxucu üçün informasiyalılıq səviyyəsi, dil-üslub xüsusiyyətləri, bədii-estetik ifadəsi, habelə jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi kimi mühüm meyarlar nəzərə alınmışdır. Bildirilmişdir ki, müsabiqədə yet tuta bilməyən jurnalistlər də öz üzərlərində daha ciddi işləyərək gələcəkdə sağlam rəqabət şəraitində uğur qazanmağa çalışmalıdırlar.

Sonra müsabiqədə əsas və həvəsləndirici yerlərin qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir. Hər üç istiqamət üzrə birinci yerə layiq görülənlərə 800 manat, ikinci yerə layiq görülənlərə 500 manat, üçüncü yerə layiq görülənlərə 300 manat, həvəsləndirici yerlərə layiq görülənlərə 100 manat məbləğində pul mükafatı və fəxri diplomlar təqdim olunmuşdur.

«Xalq qəzeti»nin əməkdaşı Vaqif Bayramov müsabiqənin qalibi olmasından qürur hissi keçirdiyini demiş, belə həvəsləndirici layihələrin gələcəkdə də davam etdirilməsi arzusunu ifadə etmişdir. Qeyd olunmuşdur ki, bu cür müsabiqələr insanların diqqətinin onların maraq və mənafeləri ilə bağlı aktual məsələlərə yönəldilməsi baxımından vacibdir.

**S.MUSTAFAYEV**

**Müsabiqənin nəticələri:**

***Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti***
Vaqif Bayramov, «Xalq qəzeti»
Akif Cabbarlı, İctimai Televiziya
İradə Cəlil, «Ekspress» qəzeti

***Vergi Partnyorluğu Sazişi: qarşılıqlı inam və etimad körpüsü***
Rasim Bayramov, «Mövqe» qəzeti
İlahə Məmmədli, «Trend» İA
Xəyalə Mustafayeva, «Xəbərservis» İA

***Əmək müqaviləsi: gələcəyə təminat***
Pərvin Məmmədova, «modern.az» saytı
Anar Miriyev, «Palitra» qəzeti
Fazil İsmayılov, «Mübariz» qəzeti (Goranboy rayonu)

**Həvəsləndirici mükafatlar:**
Məlahət Rzayeva, «Şərq» qəzeti
Vasif Cəfərov, «Ekspress» qəzeti
Şəfa Tapdıq, «Kaspi» qəzeti
Zahid Cəfərov, «Yeni Azərbaycan» qəzeti
Amid İsgəndərov, «aznyus.az» saytı
Zəkurə Quliyeva, «Qarabağ» qəzeti
Sadıq Qarayev, «Azərbaycan işıqları» qəzeti
Fərqanə Vəkilova, «Biznes tayms» qəzeti
Müşfiq Cəfərov, «Respublika» qəzeti
Nizam Rzayev, «lent.az» saytı

# Heydər Əliyev və Azərbaycanda vergi siyasəti

***Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Vergi Partnyorluğu Sazişi»: qarşılıqlı inam və etimad körpüsü», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 64 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata, 10 yazı isə həvəsləndirici yerə layiq görülmüşdür.***

***Bu sayımızdan etibarən müsabiqədə yüksək yer tutmuş jurnalistlərin məqalələrini oxucuların diqqətinə təqdim edirik.***

*«Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik».*
*Heydər ƏLİYEV, ümummilli lider*

Azərbaycanda müasir dövrün tələblərinə cavab verən vergi sisteminin formalaşdırılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin həyata keçirdiyi islahatlar nəticəsində müasir tələblərə cavab verən vergi sistemi yaradılmışdır. Məhz ulu öndərin bilavasitə rəhbərliyi ilə vergi xidmətinin fəaliyyəti yenidən qurulmuşdur. Bazar iqtisadiyyatına keçidin ən vacib şərtlərindən olan vergi münasibətlərinin tənzimlənməsində, beynəlxalq standartlara uyğun vergi sisteminin formalaşmasında, çevik vergi siyasətinin aparılmasında dahi rəhbərin misilsiz fəaliyyəti danılmazdır.

*Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə:* «Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın milli maraqlarını nəzərə alaraq uzunmüddətli inkişaf strategiyasının prioritetlərini müəyyən etdi. Onun birbaşa təşəbbüsü ilə Azərbaycanın müasir vergi sisteminin fundamental əsasları yaradıldı, kompleks və sistemli islahatların istiqamətləri müəyyənləşdirildi. Vergi sahəsində təkmil qanunvericilik bazasının yaradılması, vergi administrasiyasının modernləşdirilməsi, kadr potensialının çevik idarəetmə sistemində fəaliyyətinin təkmilləşdirilməsi vergi siyasətinin güclü və işlək mexanizmlərini formalaşdırdı. Ulu öndərin 11 fevral 2000-ci il tarixli fərmanı ilə Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyinin yaradılması yeni dövrün inkişaf meyarlarından biri olmaqla, iqtisadiyyatı yüksək artım templəri ilə müşahidə olunan Azərbaycan dövlətinin qarşısında vergi siyasətinin həyata keçirilməsinin və iqtisadi siyasətin mühüm tərkib hissəsi olmasının əyani təzahürü idi.

Ulu öndərin yürütdüyü siyasət, ilk növbədə, ölkədə sosial-iqtisadi inkişafın və regional siyasətin gücləndirilməsi, sahibkarlığa dövlət qayğısının artırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması, inzibati idarəetmə strukturlarının təkmilləşdirilməsi kimi mühüm həlqələri əhatə etməklə bu iqtisadi strategiyanın uğurla reallaşdırılmasına zəmin yaratmışdır. Bu siyasətin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət dəyişikliklər özünü təkcə bazar münasibətlərinin dərinləşməsində deyil, həm də işgüzar mühitin aktivləşməsi və dinamikləşməsində, sahibkarlıq subyektlərinin sayının gündən-günə artmasında göstərdi. Kənd təsərrüfatı mülkiyyətçiləri, torpaq vergisi istisna olmaqla, bütün növ vergilərdən azad olundu ki, bu da aqrar sahədə dinamik inkişafa əlverişli zəmin yaratdı».

*Vergilər nazirinin müşaviri Akif Musayev:* «2001-ci il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsi müstəqil Azərbaycanın həyatında yeni tarixi hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan birinə çevrildi. Bir sözlə, vergi islahatlarının bütün istiqamətləri vergi münasibətlərinin tənzimlənməsinin hüquqi əsasını qoyan Vergi Məcəlləsində öz əksini tapdı. Məcəllənin qəbulu, yeni və vahid qanunvericilik bazasının təşkili vergi sistemində aparılan islahatlara mühüm təkan verməklə dövlət-sahibkar münasibətlərində yeni bir yanaşmanın əsasını yaratdı.

Vergi siyasətinin təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi məqsədlərə xidmət etməsi üçün vergi orqanları qarşısında mühüm vəzifələr qoyuldu.

Bütün sadalananlarla yanaşı, Vergi Məcəlləsində vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar müəyyənləşdirildi».

*Maliyyə Nazirliyinin Vergi siyasəti və gəlirlər şöbəsinin müdiri Cəmil Əlizadənin* sözlərinə görə, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu səmərəli büdcə-vergi siyasətinin hədəflərinin reallaşdırılması nəticəsində son 20 il ərzində dövlət büdcəsinin gəlirləri və xərcləri əhəmiyyətli şəkildə artmışdır: «1995-ci ildən başlayaraq vergi orqanları tərəfindən təmin edilən daxilolmaların büdcə gəlirlərində yüksək artımı qeydə alınmışdır. Vergilər Nazirliyinin xətti ilə vergi daxilolmaları 1995-ci illə müqayisədə 2013-cü ildə təxminən 30 dəfə artmışdır. Belə ki, 1995-ci ildə vergi daxilolmalarının həcmi büdcədə təxminən 220 milyon manata bərabər idisə, 2013-cü ildə bu rəqəm 6,6 milyard manat təşkil etmişdir».

Qeyd olunduğuna görə, Vergilər Nazirliyinin yaradılması vergi xidmətinin hüquqi baxımdan statusunun qaldırılmasına, funksional idarəetmədə, iqtisadi tənzimləmədə və fiskal siyasətin həyata keçirilməsində aparıcı rolunun artmasına səbəb oldu. Beləliklə, respublikamızda istehsal və xidmət sahələrinin miqyasının genişlənməsi, sahibkarlıq sektorunun iqtisadiyyatda mühüm yer tutması və digər amillər ölkədə vergi daxilolmalarının həcminin artması üçün əhəmiyyətli zəmin yaratdı. 2003-2013-cü illərdə vergi daxilolmaları 823,4 milyon manatdan 6 milyard 25,5 milyon manatadək və ya 7,3 dəfə artdı.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən səmərəli iqtisadi siyasət nəticəsində Azərbaycanın vergi xidməti keyfiyyətcə yeni mərhələyə çıxmışdır. Vergi xidmətində son illər əsaslı modernləşmə prosesi getmiş, onun texnoloji imkanları genişləndirilmiş, vergi inzibatçılığı təkmilləşdirilmişdir. Dövlət başçısının 21 oktyabr 2005-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə Dövlət Proqramı (2005-2007-ci illər)» və «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» vergi xidmətində aparılmış ciddi texnoloji dəyişikliklərin əsasını qoymuşdur. 2006-cı ildə vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS), 2007-2010-cu illərdə vergi ödəyiciləri üçün elektron bəyannamə, elektron vergi hesab-fakturalarının göndərilməsi, «onlayn kargüzarlıq» sistemi tətbiq edilmişdir.

2007-ci ildə ölkə Prezidentinin tapşırığı ilə sahibkarlıq subyektlərinin «bir pəncərə» prinsipi ilə dövlət qeydiyyatı Vergilər Nazirliyinə həvalə olunmuş və bu tapşırıq uğurla icra edilmişdir. Dövlət qeydiyyatının «bir pəncərə» prinsipi ilə tətbiqinin müvəffəqiyyətlə həyata keçirilməsi beynəlxalq maliyyə təşkilatları tərəfindən yüksək qiymətləndirilmiş, bu yenilik ötən il qeydiyyat sahəsində dünyada aparılmış ən uğurlu islahat hesab edilərək, «Celebrating Reform-2008» hesabatına daxil edilmişdir.

Azərbaycanın vergi sistemi müasir informasiya texnologiyalarının tətbiqi, vergi ödəyicilərinə xidmət, insan resurslarının inkişafı və vergi inzibatçılığında yeni idarəetmə standartlarının tətbiqi baxımından mühüm nailiyyətlər əldə etmişdir. Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi vergi orqanlarının fəaliyyətini avtomatlaşdırmaqla çevik və səmərəli vergi siyasətinin aparılması üçün texnoloji dəstəyi təmin etmişdir.

Azərbaycan hazırda Avropanın ən qabaqcıl vergi modellərini tətbiq edir. Ölkəmizdə elektron audit sisteminin tətbiqi istiqamətində mühüm addımlar atılır. Avropa Komissiyası ilə birgə Niderland Krallığının Vergi Administrasiyasının dəstəyi ilə həyata keçirilən «Kompüter əsaslı audit sistemi sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstəyin göstərilməsi» Tvinninq layihəsi Azərbaycana MDB ölkələri arasında ən müasir elektron audit sistemini tətbiq etməyə imkan verəcək və sözsüz ki, vergi orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edəcəkdir.

Vergilərə dair zəruri məlumatların təqdim edilməsi məqsədilə MDB məkanında ilk olaraq Azərbaycanda yaradılan Vergilər Nazirliyinin «195» Çağrı Mərkəzi ödəyicilərə operativ və keyfiyyətli xidmətin ən mühüm vasitələrindən birinə çevrilmişdir.

Milli vergi sistemini dünya standartlarına uzlaşdırmaq istiqamətində çalışan Azərbaycan vergi sahəsində aktiv mübadilə proqramlarının tərəfdarı kimi çıxış edir. 2013-cü ildə ölkəmiz beynəlxalq birliyin təşəbbüsü olaraq ortaya çıxmış İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) «Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum»una qoşulmuşdur.

Azərbaycan iqtisadiyyatında gedən inkişaf proseslərinin tələbləri vergi sistemində qanunvericiliyə dəyişikliklər edilməsi zərurətini meydana çıxardığından, davamlı olaraq bu istiqamətdə addımlar atılmışdır. Belə ki, 2013-cü ildə Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilmiş və gəlir vergisi üzrə güzəşt və ödənişlərdən azadetmənin əhatəsi genişlənmişdir. Eyni zamanda, Prezident İlham Əliyevin müvafiq fərmanına əsasən, «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilmiş, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan hüquqi şəxslər 2014-cü il yanvarın 1-dən başlayaraq 5 il müddətinə mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad olunmuşlar. Məcəlləyə edilmiş digər dəyişikliklərə əsasən, kitab nəşri gəlir vergisindən azad olunmuş, ümumtəhsil müəssisələri üçün dərslik komplektləri (iş dəftərləri istisna olmaqla) və uşaq ədəbiyyatı istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti də vergidən azad edilmişdir. Həmçinin, uşaq bağçalarına vergi güzəştləri tətbiq olunmuşdur. Eləcə də 2014-cü il yanvarın 1-dən əhalinin bank və kredit təşkilatlarındakı əmanətləri gəlir vergisindən azad edilmişdir.

Prezident İlham Əliyevin sərəncamı ilə 2014-cü ilin «Sənaye ili» elan edilməsi ilə bağlı cari ildə sənayenin inkişafına mühüm təkan vermək məqsədilə sənaye parkları və texnoparklarda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər 7 il müddətinə, parkların idarəedici təşkilat və operatorları isə müddətsiz vergilərdən azad olunmuşdur.

Aparılan konstruktiv dialoqun nəticəsi olaraq, 2014-cü ildə vergi ödəyiciləri ilə münasibətlərin yeni əsaslarda qurulmasına başlanılmış, sahibkarlarla ilk partnyorluq sazişləri bağlanılmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev vergi xidmətinin işinə qiymət verərək bildirmişdir ki, vergi xidməti müasir əsaslarla idarə olunur, burada müasir menecment tətbiq edilir, dünya praktikası öyrənilir. Ölkə iqtisadiyyatı üçün çox vacib olan bu sahədə aparılan islahatlar, tətbiq edilən yeniliklər, «bir pəncərə» təşəbbüsü müasir Azərbaycanın inkişafına xidmət göstərir.

**Vaqif BAYRAMOV**
***«Xalq qəzeti»***



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Bölüşdürülməmiş mənfəətin nizamnamə kapitalının artırılmasına yönəldilməsi

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.15-ci maddəsində dividendə verilmiş anlayışda göstərilir ki, hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş dividend sayılır. Lakin mənfəətin və ya gəlirin səhmdarlar (payçılar) arasında digər ödəmələr şəklində bölüşdürülməsinin müxtəlif mənalarda şərh edilməsi mübahisələrin yaranmasına gətirib çıxarırdı. Bunlardan biri müəssisənin keçmiş illərdən qalan bölüşdürülməmiş mənfəətinin və (və ya) cari ildə yaranan xalis mənfəətinin səhmdarlara (payçılara) pul və ya digər əmlak şəklində ödənilməyərək birbaşa müəssisənin nizamnamə kapitalının artırılmasına yönəldilməsi nəticəsində həmin məbləğdən Vergi Məcəlləsinin 122-ci maddəsinə əsasən 10% verginin tutulub-tutulmaması məsələsi idi. Artıq bu mübahisəli məsələyə son qoyulmuşdur.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.15-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 07.12.2011-ci il tarixli Qərarında göstərilir ki, hüquqi şəxsin xalis mənfəəti dividend şəklində səhmdarlar arasında bölüşdürülmədiyinə, səhmdarlara ödənilmədiyinə və səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirmədiyinə görə, onun nizamnamə kapitalının artırılmasına yönəldilməsi Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.15-ci maddəsində nəzərdə tutulmuş dividend anlayışı ilə əhatə olunmur və dividendlərin vergiyə cəlb edilməsi üzrə vergi qanunvericiliyinin müddəaları bu əməliyyatlara şamil edilmir. Bölüşdürülməmiş mənfəətin nizamnamə kapitalının artırılmasına yönəldilməsi nəticəsində səhmdarların səhmlərinin nominal dəyərinin artırılması yalnız səhmlərin təqdim olunduğu halda fiziki şəxs olan səhmdarın gəlir vergisinin, hüquqi şəxs olan səhmdarın isə mənfəət vergisinin hesablanmasına səbəb ola bilər.

Qərarın mətnindən aydın olur ki, səhmdarlar (payçılar) müəssisənin keçmiş illərdən qalan bölüşdürülməmiş mənfəətinin və (və ya) cari ildə yaranan xalis mənfəətin tam məbləğinin və ya bir hissəsinin birbaşa müəssisənin nizamnamə kapitalının artırılmasına yönəldilməsi barədə qərar verdiyi halda, yönəldilən məbləğdən ödəmə mənbəyindən 10% vergi tutulmur, bir şərtlə ki, səhmdarların səhm üzrə (təsisçilərin pay üzrə) faiz nisbəti dəyişdirilməsin.

Müəssisələrdə, əsasən də kiçik sahibkarlıq subyekti və MMC-lərdə aparılan audit zamanı hesabatlarda yığılmış bölüşdürülməmiş mənfəət məbləği və ya kapital ehtiyatları göstəricilərinə rast gəlmək olur. Sahibkarlar əldə edilən mənfəəti müəssisəyə faktiki olaraq təkrar investisiya etsələr də, investisiyanın qaynağı bölüşdürülməmiş mənfəət məbləği və ya kapital ehtiyatları kimi hesabatlarda uyğunsuz göstəriciyə çevrilir. Ona görə də sahikarlara tövsiyə olunur ki, keçmiş illərdən qalan və cari ilin bölüşdürülməmiş mənfəət məbləğinin və (və ya) reallığı əks etdirməyən kapital ehtiyatlarının məbləğini pul və ya digər əmlak şəklində götürmək istəmədiyi halda, vergi öhdəliyi yaranmadan müəssisənin nizamnamə kapitalının artırılmasına yönəltsinlər. Çünki buna Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məlum Qərarı təkan verir. Bununla da müəssisənin hesabatlarında sahibkar tərəfindən qoyulan investisiyanın nizamnamə kapitalı hesabına qaynaqlanması kimi real göstəriciyə nail olunacaqdır.

# Beynəlxalq konfrans keçirilmişdir

*İtaliyanın paytaxtı Roma şəhərində Avropa Kommersiya Qeydiyyatçıları Forumunun (ECRF) 17-ci Konfransı keçirilmişdir.*

Tədbir zamanı Roma Ticarət Palatası prezidentinin, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, İtaliya və İspaniya qeydiyyat orqanlarının, Ernst & Young şirkətinin, eləcə də bir sıra Avropa ölkələrində qeydiyyat orqanları ilə birgə fəaliyyət göstərən özəl şirkət nümayəndələrinin təqdimatları olmuşdur. Niderland, Almaniya və Rumıniya qeydiyyat orqanlarının nümayəndələri təmsil etdikləri orqanların fəaliyyətində son zamanlar baş verən yeniliklər, xidmətlərin elektronlaşdırılması, inzibati xərclərin azaldılması, bir sıra dövlət orqanlarının məlumat bazalarından istifadə imkanlarının təmin olunması barədə təqdimatlarla çıxış etmişlər. Forumun tərkibində yaradılan İsveç, Böyük Britaniya və Almaniyanın nümayəndələrindən ibarət işçi qrup son 1 illik fəaliyyəti barədə hesabat vermişdir.

Tədbirdə ölkəmizi Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin nümayəndəsi Nərmin Hacıyeva təmsil etmişdir.

## vergi taqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | **1** |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | **8** |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | **15** |
| 16 | 17 | 18 | 19 | **20** | 21 | **22** |
| 23/30 | 24 | 25 | 26 | 27 | 28 | **29** |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**
20 iyun - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq, qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

# Fərdi uçot sistemi şəffaflığa təminat verir

*Ölkə qanunvericiliyinə uyğun əmək pensiyası və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili fərdi uçot sistemi vasitəsilə aparılır. Dövlət Sosial Müdafiə Fondu hər bir sığortaolunanı uçota alaraq onun üçün fərdi şəxsi hesab açır və burada sığortaolunanların gələcək pensiya təminatı hüququnun reallaşdırılması üçün tələb olunan məlumatlar toplanır.*

«Sığortaolunanın onlayn uçota alınması» adlı xidmət vasitəsilə sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi prosesini elektron qaydada da həyata keçirmək mümkündür. Bu xidmət vasitəsi ilə hər bir sığortaedən birbaşa elektron qaydada müraciət etməklə sığortaolunanlar üçün sosial sığorta şəhadətnaməsinin rəsmiləşdirilməsi imkanına malik olur. Elektron xidmətdən istifadə üçün sığortaedən «Sığortaolunanın onlayn uçota alınması» elektron xidmətindən həm DSMF-nin saytı (www.sspf.gov.az), həm də «Elektron hökumət» portalı (www.e-gov.az) vasitəsilə istifadə edə bilər.

Bundan əlavə, fərdi uçot sistemində qeydiyyata düşməyin daha bir müsbət tərəfi də ondan ibarətdir ki, DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanın sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək imkanı var. İstənilən sığortaolunan yuxarıda qeyd edilən elektron ünvanlara daxil olaraq «Sığortaolunanlara məlumatların verilməsi» adlı elektron xidmət vasitəsilə onun üçün işəgötürən tərəfindən hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları əldə edə və illər üzrə öz pensiya kapitalını izləyə bilər. Bu da işləyənlərin öz işəgötürənləri üzərində ictimai nəzarətinin daha da güclənməsinə imkan verir. Fərdi hesabın izlənilməsini mümkün edən bu xidmət vətəndaşların gələcək pensiya təminatında, şəffaflığın təmin olunmasında mühüm rol oynayır.

«Sığortaolunanlara məlumatların verilməsi» xidməti fərdi uçot sistemində qeydiyyatda olan vətəndaşlar tərəfindən ən çox müraciət olunan xidmətlərdən hesab edilir. Bu, «Elektron hökumət» portalında «Ən çox istifadə olunan xidmətlər» siyahısından və DSMF-nin saytı vasitəsilə keçirilən interaktiv sorğudan da görünür. Ötən il DSMF-nin saytında «Elektron xidmətlər vasitəsilə fərdi şəxsi hesabınızı izləyirsinizmi?» mövzusunda interaktiv sorğunun nəticəsinə görə, sorğuya qatılanların 58,1%-i əmək müqaviləsi ilə çalışdığını və fərdi şəxsi hesabını izlədiyini bildirib. Respondentlərin 13,6%-i suala «Xeyr, əmək müqaviləsi olmadan çalışıram və fərdi hesabıma ödəmələr həyata keçirilmir» cavabını verib. Sorğu iştirakçılarının 28,3%-i elektron xidmət vasitəsilə fərdi şəxsi hasabın izlənilməsinin mümkünlüyündən məlumatsız olduğunu bildirib.

Bütün bu kimi tədbirlər fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayına təsir edir. Cari ilin əvvəli ilə müqayisədə fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 4,1% artıb. DSMF sədri Elman Mehdiyev bildirib ki, 2014-cü ilin 5 ayı ərzində 110 minə yaxın sığortaolunan əlavə qeydiyyata alınıb və bu, ölkəmizdəki iqtisadi inkişafın daimi yeni iş yerlərinin açılmasına və qeydiyyatda olan sığortaolunanların sayının artımına birbaşa təsirinin göstəricisidir.

Onun sözlərinə görə, hazırda ölkədə 2 milyon 800 mindən artıq sığortaolunana fərdi uçot sistemində şəxsi hesab açılıb.

Qeyd edək ki, iyunun 1-nə olan məlumata əsasən, DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 58,8%-i kişi, 41,2%-i isə qadınlardır. Onların 22,9%-ni 30 yaşadək, 24%-ni 30-40 yaş arası, 21,8%-ni 40-50 yaş arası, 20,9%-ni 50-60 yaş arası, 10,4%-ni isə 60 yaşdan yuxarı vətəndaşlar təşkil edir.

**AYTƏN**

# Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**5-ci MƏRHƏLƏ** *(davamı)*

**Maliyyə hesabatlarının hazırlanması**

Göstəriciləri daha açıqlanmış formada əks etdirməklə «pul vəsaitlərinin hərəkəti haqqında hesabat»ı sadə şəkildə aşağıdakı kimi də tərtib etmək olar:

**PƏRAKƏNDƏ TİCARƏT OBYEKTİ**
**Pul vesaitlerinin hereketi haqqında hesabat**
**«31» yanvar 2014-cü il tarixinə**

| Gösterciler | Qeydler | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| **I. Əməliyyat fealiyyetinden pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründe xalis menfeet | | 37376 | |
| Mənfəət vergisi üzrə xərclər | | 9344 | |
| Avadanlıqlara hesablanmış amortizasiya | | 22500 | |
| Malların artması | | (111650) | |
| Alıcı ve sifarişçilerin qısamüddetli debitor borclarının artması | | (63400) | |
| Malsatan ve podratçılara qısamüddetli kreditor borcların artması | | 128470 | |
| Əmeyin ödenişi üzre işçi heyetine qısamüddetli kreditor borcların artması | | 1440 | |
| Sosial sığorta ve teminatlar üzre öhdeliklerin artması | | 2700 | |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vesaitlerinin xalis hereketi** | | **26780** | |
| **II. İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| Avadanlıqların əldə edilməsi üçün pul vesaitlerinin xaricolmaları | | (75000) | |
| **İnvestisiya feallyyetinden yaranan pul vesaitlerinin xalis hereketi** | | **(75000)** | |
| **III. Maliyyeleşdirme üzre fealiyyetden pul vesaitlerinin hereketi** | | | |
| Tesisçi terefinden nizamname kapitalına pul qoyuluşu | | 30000 | |
| Qısamüddetli bank kreditlerinin alınması | | 80000 | |
| **Maliyyeleşdirme üzre fealiyyetler ile elaqedar fövqelade xaricolmalar ve daxilolmalar** | | **110000** | |
| **Pul vesaitleri ve onların ekvivalentlerinin artması (azalması) (I + II + III)** | | **61780** | |

| Pul vəsaitləri və onların əkvivalentlərinin hərəkəti | Qeydlər | 31.01.2014 | 31.12.2013 |
|---|---|---|---|
| **Bank oferdraftları çıxılmaqla pul vesaitleri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **27000** | |
| İl ərzində xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | 0 | |
| **Bank oferdraftları çıxılmaqla pul vesaitleri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği** | | **88780** | |

Əvvəlki izahlarda qeyd edildi ki, hesabatın 1-ci «Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti» bölməsində əks etdirilən göstəricilərin xarakteri və qaynaqları hesabatın 2-ci və 3-cü bölməsindəki sətirlərində əks etdirilən göstəricilərin xarakteri və qaynaqlarından fərqlənir. 1-ci bölmədə göstəricilər müvafiq hesablar üzrə hesabat dövrünün sonuna qalığının hesabat dövrünün əvvəlinə qalığına münasibətdə dəyişməsi (artması və ya azalması) ilə əlaqəlidir. 1-ci bölmədə bəzi göstəricilərin (mallar, alıcıların debitor borcları) artması mənfi ilə, digər bəzi göstəricilərin (malsatanlara olan borclar, əmək haqqı borcları, sosial sığorta borcları) artması isə müsbət göstərilmişdir. Bunu izah edək.

Məntiqlə yanaşsaq, belə təsəvvür yaranır ki, müəssisənin hesabat dövrünün sonuna pul qalığının məbləği hesabat dövrünün əvvəlinə (əvvəlki ilin sonuna) pul qalığının məbləğindən hesabat dövründə yaranan xalis mənfəətin (və ya zərərin) məbləği qədər artıq (və ya az) olmalıdır. Bu o halda ola bilər ki, müəssisənin pul hesablarından başqa, bütün digər (aktiv, öhdəlik və kapital) hesablarının qalıqlarında dəyişikliklər baş verməsin, yəni həmin hesabların qalıqları hesabat ilinin əvvəlində nə qədər olmuşdursa, ilin sonunda da həmin qalıq olmalıdır. Əgər qalıqlarda dəyişikliklər vardırsa, hesabat dövrünün sonuna pul qalığı hesabat dövründə yaranan xalis mənfəətin (və ya zərərin) məbləği qədər artan (və ya azalan) məbləğdən fərqli olacaqdır.

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın 1-ci bölməsini tərtib edərkən aşağıda göstərilən iki şərti bilmək vacibdir:

1. Hesabat dövrü ərzində müəssisənin mal qalığının, debitor borclarının və sair qısamüddətli aktivlərinin ilin sonuna qalıqlarının artması məntqə görə pul qalığını azaldır. Ona görə də bu maddələr üzrə artma hesabatda mənfi göstərilir ki, azalmış pul qalığına uyğun olsun. Əksinə, mal qalığının, debitor borcların və sair qısamüddətli aktivlərin azalması məntiqə görə pul qalığını artıran faktordur. Ona görə də bu maddələr üzrə azalma müsbət göstərilir ki, artmış pul qalığına uyğun olsun.

2. Hesabat dövrü ərzində kreditor borcların ilin sonuna qalıqlarının artması ilin sonuna pul qalığını artıran faktordur. Məntiq belədir ki, kreditor borclar ödənilmədiyinə görə, artıq pul (onlara ödənilməli pullar) yığılıb müəssisənin pul hesablarında qalmışdır, yəni pul mənfəətin məbləği qədər artan məbləğdən daha çox olacaqdır. Ona görə də artma müsbət göstərilir ki, artmış pul qalığına uyğun olsun. Əksinə, hesabat dövründə kreditor borcların azalması ilin sonuna pul qalığını azaldan faktordur. Məntiq belədir ki, kreditor borclar daha çox ödənildiyinə görə, pul qalığı azalmışdır, yəni pul mənfəətin məbləği qədər artan məbləğdən daha az olacaqdır. Ona görə də azalma mənfi göstərilir ki, kassada azalmış pul qalığına uyğun olsun.

Ümumiyyətlə, aktiv hesablar üzrə qalığın artımı pul qalığını azaldan, qalığın azalması isə pul qalığını artıran amildir. Həmçinin, passiv (öhdəlik, kapital) hesablar üzrə qalığın artımı pul qalığını artıran, qalığın azalması isə pul qalığını azaldan amildir.

beynəlxalq panoram

# Kənd təsərrüfatı sahələrindən vergi 10 dəfə arta bilər



Qazaxıstanda kənd təsərrüfatı sahələrindən istifadəyə görə vergi 5 dəfə, istifadəsiz qalan torpaq sahələrinin sahiblərindən tutulan vergi isə 10 dəfə artırıla bilər. Bu təklifi Kənd Təsərrüfatı Nazirliyinin İşgüzar Şurasında qurumun rəhbəri Asıljan Mamıtbekov bildirib. Aqrar sahənin işçiləri əvvəl qüvvədə olan 70% vergi endirimindən məhrum olur, lakin ətraf mühitə emissiyanın haqqından, eləcə də nəqliyyat və əmlak vergisindən azad edilirlər. Onlardan tutulan sosial verginin də miqdarı 11%-dən 6,5%-ə qədər azaldılacaq.

Qazaxıstan Fermerlər İttifaqının prezidenti A.Darinov deyib ki, vergi bu gün torpağı, otlaqları, əkin sahələri olan, lakin burada fəaliyyət göstərməyən hüquqi şəxslərə tətbiq ediləcək. Bunlardan istifadə edənlər isə güzəştli rejimdən istifadə edəcək. Fermerlər İttifaqı ət, süd, dəri və tərəvəz emal edən müəssisələrə ƏDV-nin dövlət büdcəsindən qaytarılmasını da təklif edir.

# Rusiyada mənzil vergisi artacaq

*Qarşıdakı 5 il ərzində fiziki şəxslərdən daşınmaz əmlaka görə tutulan verginin miqdarı 3-10 dəfə arta bilər. Federal Vergi Xidmətindən (FVX) verilən məlumata görə, tezliklə Maliyyə Nazirliyi tərəfindən fiziki şəxslərin daşınmaz əmlakının vergiyə cəlb olunması barədə qanun layihəsi hökumətə təqdim ediləcəkdir.*

Qeyd olunur ki, vergi başqa tərzdə - əmlakın inventar dəyərindən deyil, kadastr dəyərindən tutulacaq. Kadastr dəyəri bazar dəyərinə daha yaxın olduğundan rusiyalıların əmlak üzrə vergi yükü on dəfələrlə arta bilər. Hesablamalara əsasən, yeni binalardakı mənzillər üzrə vergi məbləğinin artımı cüzi olsa da, köhnə binaların sakinləri üçün vergi bazası kəskin yüksələ bilər.

Məlumat verilir ki, mənzillər və qarajlar üzrə federal vergi dərəcəsi 2% əvəzinə 0,1%, başqa obyektlər üzrə isə 0,5% həcmində müəyyənləşdirilir. Dəyəri 300 milyon rubldan baha olan mənzillər üçün vergi dərəcəsi 2% nəzərdə tutulur. Rusiya Federasiyasının (RF) regionları bu dərəcələri azalda bilər.

Fiziki şəxslərin vergi yükü 5 il müddətində bərabər həcmdə - ildə 20% artırılacaq. FVX-nin məlumatına görə, bu illər ərzində RF-nin subyektləri üzrə mənzil vergisinin orta məbləği 2012-ci ildəki 642 rubldan (1 rubl= 0, 0248 manat) 3 dəfə artaraq, təqribən 1,92 min rubl təşkil edəcək. Əmlak vergisi Moskvada 5 dəfə, yəni 6,69 min rubladək çoxalacaq.

Bəzi hallarda vergi yükü 10 dəfə və daha çox artacaq. Məsələn, Kalininqrad vilayətində 1945-ci ildə inşa olunmuş binada üçotaqlı mənzilə görə vergi 30 dəfə, həmin regionda 1983-cü ildə inşa olunmuş binadakı ikiotaqlı mənzilə görə isə 18 dəfə arta bilər. Amma mütləq ifadədə vergi müvafiq olaraq 782 və 817 rubl artacaq.



Xarici ölkələrin təcrübəsi:

# Norveç Krallığının vergi sistemi: fiziki şəxslərin gəlir vergisi

*Ölkədə Norveç mənbəyindən gəliri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləri hesab olunurlar. Qeyri-rezidentlər yalnız Norveç mənbəyindən əldə etdikləri konkret gəlir növlərindən gəlir vergisi ödəyirlər.*

Evli cütlüklərin gəlirləri cəmlənərək birlikdə vergiyə cəlb olunur. Lakin həmin cütlüklərin hər birinin ayrılıqda gəliri varsa, onlardan hər ikisinin müraciəti əsasında gəlirləri ayrı-ayrılıqda da vergiyə cəlb oluna bilər.

denti hesab olunurlar.

Vergitutma bazası məcmu gəlirdir. Vergi tutulan gəlirlərə aşağıdakılar aid edilir:

- Keçmiş və gələcək iş yerindən muzdlu gəlir: buraya pul şəklində hər növ əməkhaqqı, bonus, birdəfəlik ödənişlər, mükafat və s. gəlirlər və natural şəkildə əldə olunan faydalar daxildir.

- Sahibkarlıq və ya peşə fəaliyyətindən əldə edilən gəlir: ümumi qayda olaraq müəssisələrə aid edilən qaydalar əsasında müəyyən edilir.

- Bank faizləri, daşınan və daşınmaz əmlakdan əldə edilən gəlirlər.

Bir sıra sosial ödənişlər və azyaşlılara natura şəklində yardımlar gəlir vergisinə cəlb olunmur.

Norveçdə milli və bələdiyyə gəlir vergisinin birləşdirilmiş məcmu dərəcəsi 28%-dir. Finnmark və Nord-Troms şimal qraflıqlarında azaldılmış 24,5% dərəcə tətbiq edilir.

İllik gəliri 200000 Norveç kronundan (35800 ABŞ dolları) artıq olan şəxslər əlavə 1,5%-lik zənginlik vergisi ödəyirlər.

Faiz ödənişləri kreditin alınma məqsədi və girovla təmin edilib-edilməməsindən asılı olmayaraq, gəlirdən çıxılır.

Norveçdə muzdlu işdən gəlir, direktorlara, komitə üzvlərinə ödənişlər, vergi tutulan sosial ödənişlər, təqaüd, faizlər və digər bu tipli gəlirlər ödəmə mənbəyində vergitutmaya cəlb olunur.

Fiziki şəxslər üçün vergi dövrü təqvim ili hesab olunur. Bu müddəa vergi ödəyicisinin gəlir əldə etdiyi maliyyə ilinin təqvim ilindən fərqli olduğu hallara da şamil edilir.

Vergi ödəyicisinin yekun qiymətləndirməsi vergi ilindən sonrakı təqvim ilinin aprel ayının sonunadək təqdim edilən bəyannamədə əks olunur. Sahibkarlıqla məşğul olan vergi ödəyiciləri bəyannaməni elektron şəkildə vergi ilindən sonrakı təqvim ilinin may ayının sonunadək təqdim etməlidirlər.

Fiziki şəxslər gəlir vergisini, bir hissəsini ödəmə mənbəyində tutulmaqla, digər hissəsini isə ilkin qiymətləndirmə əsasında ödəyirlər.

İlkin qiymətləndirmə əsasında hesablanmış vergilər dörd bərabər avans ödənişi şəklində 15 mart, 15 may, 15 sentyabr, 15 noyabr tarixlərinədək ödənilir. Əgər ödənilməli məbləğ 1000 Norveç kronundan (179 ABŞ dolları) az olarsa, vergi bir avans ödənişi şəklində mayın 15-dək ödənilir.




Fiziki şəxs Norveçdə yaşayırsa və burada müvəqqəti qalmaq məqsədi yoxdursa, Norveç rezidenti hesab olunur. Norveçə gəlmə vaxtından sonra 6 ay burada yaşamaq rezident hesab edilmək üçün kifayət edir. Fiziki şəxsin rezidentliyi o halda bitmiş hesab olunur ki, başqa dövlətdə daimi yaşayış yeri yaratmış olsun və Norveçdə vergi ili ərzində 61 gündən az müddətdə qalsın. Qeyri-rezident hesab olunmaq üçün fiziki şəxsin özünün, həyat yoldaşının və azyaşlı uşaqlarının da Norveçdə daimi yaşayılan evi olmamalıdır. 10 il və daha artıq müddətdə Norveç rezidenti olan şəxslər emiqrasiyadan 3 il sonra da Norveç rezi-

Rubrikanı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi aparır

krossvord



**Yuxarıdan aşağı:**
1.Şimali Amerikada dövlət; 2.Arxitektura termini. Dairəvi formada tikilən günbəzli bina; 3.Üzərində kino, yaxud diapozitiv şəkilləri göstərilən ağ səth, televizorun bir hissəsi; 4.Teatr, sirk artistləri dəstəsi; 5.Bitki; 6.Pendir növü; 9.Gülçiçəklilər fəsiləsindən bitki cinsi, meyvə; 13.Fransız rəssam, impressionizm cərəyanının yaradıcılarından biri; 15.ABŞ-da ştat; 16.Ağır çəkidə WBC, WB0, WBA versiyaları (nüfuzlu kateqoriya) üzrə üç dəfə dünya çempionu; 17.Estradası olan restoran, kafe; 18.Fransanın təbiətşünas alimi. Canlı aləmin mükəmməl təkamül nəzəriyyəsini yaratmağa çalışırdı. Sonradan bu nəzəriyyə onun adını daşıdı; 20.Rusiyada çay; 21.Morfoloji və fizioloji xüsusiyyətləri öyrənilmiş müəyyən mikroorqanizm növünün becərilməsi, yetişdirilməsi;

**Soldan sağa:**
1.Mətnləri oxuyan və səhvləri düzəldən mətbəə və ya nəşriyyat işçisi; 5.Böyük Britaniya və İrlandiyada mədəniyyət elementi olaraq spirtli içki satılan və içilən müəssisə; 7.Müxtəlif sənədləri, hüquqi aktları təsdiq etmək vəzifəsi daşıyan rəsmi şəxs; 8.İlk Avropa Oyunlarının paytaxtı; 10.Bu gündən əvvəlki gün; 11.Bal və ziyafətlərdə asta templi təntənəli Polşa mənşəli Avropa rəqsi; 12.Şimali Afrika, Ərəbistan yarımadası, Hindistan və Asiyanın bəzi bölgələrində geniş yayılmış kişi baş örtüyü; 14.Ölkəmizdə və Yaxın Şərqdə geniş yayılmış şirniyyat növü; 19.Dalamazkimilər fəsiləsinə aid bitki cinsi; 21.Üzərinə parça və ya başqa material çəkilmiş çərçivələrdən ibarət açılıb-bükülən arakəsmə; 22.Cənubi Amerikada dövlət; 23.Kvadratik funksiyanın ($y = x^2$) qrafikinə verilən ad; 24.Maldar icma üzvlərinə məxsus xüsusi qurum, həmçinin oturaq əhalinin müvəqqəti yaşayış məskəni. Müasir dilimizdə doğma yurd mənası da verir; 25.Hippokratın aşkar etdiyi dörd temperamentdən biri.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Hekata; 2.Plagiat; 3.Rasim *(Ocaqov)*; 4.Odessa; 5.Elita; 6.Rokfor; 9.Opir; 13.Mali; 15.Kaşalot; 16.Oklend; 17.Şedevr; 18.Edison *(Tomas Alva)*; 20.Boran; 21.Rikşa.
**Soldan sağa:** 1.Hiperbola; 5.Eyr; 7.Kraysler; 8.Sink; 10.Teizm; 11.Soprano; 12.Ştamp; 14.Triko; 19.Kabalye *(Monserrat)*; 21.Rəşid *(Behbudov)*; 22.Euro; 23.Herkules; 24.Don; 25.Serpantin.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi
Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az
Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az
Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651
M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60
Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)
«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14200

idman

# Dağ velosiped idmanı üzrə ilk Azərbaycan çempionatı



*İyunun 14-də Veloparkda velosiped idmanının MTB (dağ velosipedi) növü üzrə ilk Azərbaycan çempionatı keçirilmişdir. Azərbaycan Velosiped İdmanı Federasiyasından bildirmişlər ki, 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş yarışda peşəkar velosipedçilərlə yanaşı, həvəskar dağ velosipedçiləri də iştirak etmişlər.*

Yarışın reqlamentinə əsasən, elit və U-23 yaş qrupunda çıxış edən idmançılar ümumi uzunluğu 2300 metr olan marşrut boyunca 8, yeniyetmə və gənclər 6, həvəskar dağ velosipedçiləri isə 4 dövrə vurmuşlar.

Ölkə çempionatının nəticələrinə gəlincə, həvəskarlar arasında Musa Mikayılzadə, Pərviz İlyasov və Ceyhun Əsədov ilk üç yeri tutmuşlar. Yeniyetmə və gənclərin mübarizəsində 8 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinin təmsilçisi Kənan Qəhrəmanlı 43 dəqiqə 6 saniyə göstərici ilə birinci olmuşdur. Onun komanda yoldaşı Nicat Qarayev çempiona 6 dəqiqə 46 saniyə uduzmaqla üçüncü nəticə göstərmişdir. Gümüş medala isə Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin velosipedçisi Tərlan Məmmədov layiq görülmüşdür (47 dəqiqə 40 saniyə). Elit və U-23 yaş qrupunda Azərbaycan çempionu adına və xüsusi çempion köynəyinə «Synergy Baku» komandasının üzvü Aqşin İsmayılov layiq görülmüşdür. O, finişi 55 dəqiqə 58 saniyəyə keçmiş və gümüş medal qazanan Respublika Olimpiya Ehtiyatları İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped İdmanı Məktəbinin yetirməsi Orxan Məmmədovu 52 saniyə qabaqlamışdır. İlk üçlüyü isə Orxan Məmmədovun komanda yoldaşı Murad Sultanov tamamlamışdır (1 saat 1 dəqiqə 35 saniyə).

Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov dağ velosipedi üzrə ilk ölkə çempionatının əhəmiyyətindən danışaraq bildirmişdir ki, yarışın respublikamız üçün əlamətdar gün - Milli Qurtuluş Gününə həsr edilməsi rəmzi məna daşıyır. Çünki çempionatın keçirildiyi park ötən əsrin 70-ci illərində məhz ümummilli liderimiz Heydər Əliyevin şəxsi təşəbbüsü və iştirakı ilə salınmış, 2013-cü ildə isə həmin parkın ərazisində Velopark yaradılmışdır: «Bu yarışın Azərbaycanda dağ velosipedinə marağı artıracağına inamımız böyükdür. Çünki gələn il təşkil olunacaq ilk Avropa Oyunlarının proqramında velosiped idmanının şose, BMX və dağ velosipedi növü üzrə yarışlar vardır. Əsas məqsədimiz idmançılarımızın bu yarışlarda uğurlu çıxışına nail olmaqdır».

Azərbaycan çempionatında ilk üç yeri tutmuş velosipedçilər medal, diplom və qiymətli hədiyyələrlə təltif edilmişlər. Mükafatlandırma zamanı «Tour d'Azerbaidjan-2014» veloyürüşünün virtual oyun versiyasının qalibi Ayxan Məsimliyə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən velosiped hədiyyə olunmuşdur.



Qeyd edək ki, Azərbaycan çempionatının nəticələri Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) reytinq siyahısında nəzərə alınacaqdır.

# Futbol üzrə Dünya çempionatı başladı

*İyunun 12-də Braziliyada möhtəşəm futbol bayramı - XX Dünya çempionatına start verildi. Dünyanın 32 milli komandası iyunun 12-dən iyulun 13-dək mundialın əsas mükafatı - FİFA-nın Dünya Kuboku uğrunda mübarizə aparacaq.*

Açılış matçında «A» qrupunda çıxış edən Braziliya və Xorvatiya yığmaları qarşılaşmışlar. Gərgin idman mübarizəsi şəraitində keçən matçda çempionata ev sahibliyi edən Cənubi Amerika təmsilçiləri 3:1 hesabı ilə qələbə qazanmışlar.

***İndiyədək keçirilən digər oyunların nəticələri:***

*Meksika-Kamerun - 1:0;*
*İspaniya-Hollandiya - 5:1;*
*Çili-Avstraliya - 3:1;*
*Kolumbiya-Yunanıstan: 3:0;*
*Uruqvay-Kosta-Rika - 1:3;*
*İngiltərə-İtaliya - 1:2;*
*Fil Dişi Sahili-Yaponiya -2:1;*
*İsveçrə-Ekvador - 2:1;*
*Fransa-Honduras - 3:0;*
*Argentina-Bosniya və Herseqovina - 2:1;*
*Almaniya-Portuqaliya - 4:0;*
*İran-Nigeriya - 0:0;*
*Qana-ABŞ - 2:1.*

# «Synergy Baku»nun növbəti uğuru

*Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası - «Synergy Baku»nun üzvləri Avstriyada keçirilən, ümumilikdə 13 komandanın tərkibində 131 velosipedçinin mübarizə apardığı 1 günlük «Judendorf» Qran-Prisində iştirak ediblər.*

Beynəlxalq Velosipedçilər İttifaqının 1.2 kateqoriyalı yürüşündə komandamızın heyətində Samir Cəbrayılov, Tural İsgəndərov, Aleksandr Surutkoviç, Yan Sokol, Markus Eybeger, Maksim Averin və Konnor McConvey mübarizə aparıblar. 174 km-lik yürüş velosipedçilərimizin uğurlu komanda çıxışı ilə yadda qalıb. «Synergy Baku»nun üzvü Markus Eybeger finiş xəttini qalibdən 7 saniyə gec keçməklə 3-cü yeri tutub.

mozaika

## Velosipedçilər üçün küçə kafesi

maraqlı



*İsveçrənin Sürix şəhərinin rəhbərliyi 2025-ci ildə nəqliyyat infrastrukturunun yaxşılaşdırılması üzrə plan çərçivəsində dizayner studiyalarından birinə velosipedçilər üçün kafenin hazırlanması layihəsini sifariş etmişdir.*

Nəticədə «Velokafi» adlanan qeyri-adi yığcam kafe ərsəyə gəlmişdir. «Velokafi»nin əsas xüsusiyyəti budur ki, küçədə quraşdırılmış xüsusi masaların ön divarında velosipedin qabaq təkəri üçün kəsiklər vardır. Bununla da kafeyə baş çəkmiş velosipedçi oturacağından düşmədən velosipedinin qabaq təkərini həmin kəsiyə park etməklə rahatlıqla çayını içə və ya yemək yeyə bilir.

## Dünyanın qeyri-adı vergiləri

*İngiltərədə qorxaqlığa görə dövlətə vergi ödəyirdilər. Bu inzibati cəza növündən kral uğrunda döyüşmək istəməyənlərdən yığılan haqq kimi istifadə edilirdi.*

Kral I Henrixin dövründə (1100-1135) tətbiq olunmağa başlanan bu vergi növü ilk dövrlərdə az məbləğ təşkil edib. Lakin daha sonralar kral İoanın əmri ilə həmin məbləğ 300 faizə qədər artırılıb. Bu, 300 ilə qədər davam edib və sonralar dövlət büdcəsindən orduya ayrılan vəsaiti artırmaq üçün başqa metodlarla əzəvlənib.

## Adada «Ulduz müharibələri» muzeyi

*Birləşmiş Ərəb Əmirliklərinin hakimiyyət orqanları Əbu-Dabinin yaxınlığında «Ulduz müharibələri» muzeyi açmağı planlaşdırır. Burada «Ulduz müharibələri» kinoepopeyanın yeddinci hissəsinin çəkilişləri gizli şəkildə aparılmışdır.*

Filmin çəkilişlərini təşkil etmiş şirkət çəkiliş zamanı istifadə olunmuş rekviziti və dekorasiyaları - qüllələri, kosmik gəmini və qədim bazarı saxlamağı planlaşdırır. Muzey hələlik dəqiq məlum olmasa da, çox güman, Saadiyat adasında yerləşəcəkdir.

Kosmik kinoepopeyanın yeddinci hissəsinin çəkilişləri mayın ortalarında BƏƏ-də aparılmışdır. Ölkənin paytaxtı Əbu-Dabi yaxınlığındakı səhrada irimiqyaslı dekorasiyalar qurulmuşdur. Filmin detallarını gizli saxlamaq üçün ərazi polis və ordu tərəfindən ciddi mühafizə olunur.

«Ulduz müharibələri» filmi «Lucasfilm» studiyasının kosmik kinoepopeyasıdır. «Lucasfilm» «Disney» şirkəti tərəfindən alındıqdan sonra yeni epizodları «Ulduzlu yol» və «Missiya yerinə yetirilməzdir 3» filmlərinin rejissoru Cey Cey Abrams çəkəcəkdir. Yeni filmlərin personajları arasında «Ulduz müharibələri» birinci orijinal trilogiyasının qəhrəmanları olacaqdır.




## Leonardo da Vinçinin avtoportretini xilas etməyə çalışırlar

texnologiya

*İtaliya alimləri kağızın köhnəlməsinin analizi metodunu yaratmışlar. Bu metodun köməyi ilə onlar Leonado da Vinçinin ən məşhur əsərlərindən birinin -Turindəki Kral Kitabxanasında saxlanılan avtoportretinin məhv olmasının qarşısını almaq istəyirlər.*

Romadakı «Tor Vergata» Universitetinin nümayəndəsi Adriano Moska Konte demişdir: «1500-cü illərin əvvəllərində yaradılan portret uzun müddət çox pis şəraitdə saxlanılmış, işığın, rütubətin, mikroorqanizmlərin təsirinə məruz qalmış, çirklənmişdir. Nəticədə xeyli saralmış və qaralmışdır».

Əks etdirilmiş işıq texnologiyasına əsaslanan yeni metod avtoportreti zədələmir və ondan nümunələrin götürülməsini tələb etmir. Alimlər bu metodun köməyi ilə belə bir məsələni aydınlaşdırmağa çalışırlar: müasir şəraitdə saxlanılan, nəzarət altında olan şəkildə dağılma prosesi səngiyibmi?

Adriano Moska Konte əmindir ki, qədim kağızın belə analizi metodu çoxlu sayda qiymətli tarixi əsəri qoruyub saxlamağa imkan verəcəkdir.



## «Amazon»un yeni ödəniş sistemi

***ABŞ-ın «Amazon» şirkəti internetdə «Amazon Payments» adlanan şəxsi ödəniş sistemini işə salıb.***

PayPalın rəqibi olan xidmət hesabları ödəməyə, jurnal və qəzetlərə abunə haqqını ödəməyə, pul köçürmələri etməyə, internet üzərindən mobil rabitə, məhsul və xidmətlərin haqqını ödəməyə imkan verir. İnternet mağaza və xidmətlərdən «Amazon» komissiyası aylıq dövriyyədən asılı olaraq bir əməliyyata görə 1,9-dan 2,9%-dək, üstəgəl 30 sent təşkil edəcək. 10 dollardan aşağı ödənişlər üçün tutulan komissiya 5%, üstəgəl 5 sent təşkil edəcək.

Qeyd edək ki, «Amazon» dünyanın ən böyük onlayn pərakəndə satış şirkətidir. Şirkətin Braziliya, Kanada, Böyük Britaniya, Almaniya, Yaponiya və başqa ölkələrdə filialları var, həmçinin dünyanın 61 ölkəsinə məhsul tədarük edir.

### Müdriklər deyib ki...



***«Həyatdakı ən böyük uğur – yıxılmamaq deyil. Əsas məsələ hər dəfə yıxılanda qalxmaqdır».***

***Nelson Mandela (1918-2013)***